BEYNƏLXALQ GİMNASTİKA FEDERASİYASI

YARIŞ QAYDALARI
2017 – 2020

QADIN İDMAN GİMNASTİKASI

BGF İcraiyyə Komitəsi tərəfindən təsdiq edilmişdir

12-18 dekabr 2016-cı il qitələrarası kursdan sonrakı dəyişikliklərlə

Olimpiya Oyunlarında
Gənclərin Olimpiya Oyunlarında
Dünya Çempionatlarında
Regional və Qitələrarası Yarışlarda
Beynəlxalq Yarışlarda keçirilən
Qadın idman gimnastikası üzrə yarışlar üçün

Qitə və ya Regional texniki komitələr, gimnastların inkişaf səviyyələrini və yaşlarını nəzərə almaqla, ***Yarışların Dəyişilmiş Qaydalarını*** *yarada bilərlər, həmin dəyişilmiş qaydalardan gimnastikanın inkişaf səviyyəsinin aşağı olduğu ölkələrdə və ya gənclər üçün yarışlarda istifadə edilə bilər (baxın:* ***FIG Age Group Development Program)***

Yarış qaydaları Beynəlxalq Gimnastika Federasiyasının mülkiyyətidir. Qaydaların tərcümə edilməsinə və surətinin çıxarılmasına yalnız Beynəlxalq Gimnastika Federasiyasının yazılı razılığından sonra icazə verilir. Bu sənəddə göstərilən qaydalarla Texniki Reqlamentdə göstərilən qaydalar arasında ziddiyyətlər olduqda, Texniki Reqlamentdəki qaydalar üstün qüvvəyə malikdir. Müxtəlif dillərdəki tərcümə variantlarında ziddiyyətlər olduğu halda, ingilis dilindəki mətn düzgün hesab edilir.

Prezident	Donatela Sakki	ITA
1-ci vitse-prezident	Kim Daudel	AUS
2-ci vitse-prezident	Kuiri Ju	CHN
Katib	Coana Qrat	AUT
Üzv	Lyubov Burda-Andrianova	RUS
Üzv	Yelena Davıdova	CAN
Üzv	Tatyana Perskaya	USA
İdmançıların nümayəndəsi	Bes Tvidl	GBR
QTK məsləhətçisi	Naomi Valenzo	MEX
İllüstrasiyalar	Ceyms Stivenson və	USA
	Koyçi Endo	JPN
Orijinal illüstrasiyalar	İnqrid Niklas	GER
Düzəliş – illüstrasiyalar, simvollar, cədvəllər	Marqot Diyets,	GER
	Linda Çeçinski və	USA
	Milviya Bernaskoni	ITA
Fransız dilinə tərcümə	İvet Brayzer	FRA
Alman dilinə tərcümə	Sabrina Klasberq	GER
İspan dilinə tərcümə	Helena Lario	ARG
	Nelli Kim	BLR
Rus dilinə tərcümə	Yelena Lauri	USA
İngilis dili	Linda Çeçinski	USA

Yarış Qaydalarında Dəyişikliklər

BGF yarışlarının qaydalarına əlavələrinin nəşri BGF rəsmi yarışlarından sonra BGF QTK tərəfindən həyata keçirilir. Nəşrlərə aşağıdakılar daxildir:

- müvafiq nömrələr və illüstrasiyalarla bütün yeni elementlər
- yeni ardıcıllıqlar

Yarış qaydalarına əlavələr, onların gələcək BGF yarışları üçün qüvvəyə minmə tarixi göstərilməklə, BGF Baş Katibi tərəfindən bütün federasiyalara göndəriləcəkdir.

Əlavə məlumat

Əlavə nümunələr, təsvirlər, təriflər, dəyişikliklər və izahatlar BGF veb-saytında, WAG Help Desk bölməsində verilmişdir.

Qısaltmalar

Komitələr	
BGF	Beynəlxalq Gimnastika Federasiyası
QTK	Qadın idman gimnastikası üzrə Texniki Komitə
Sənədlər	
TR	Texniki Reqlament
Alətlər	
S/H	Sərbəst hərəkətlər
AQ	Aşağı qol
YQ	Yuxarı qol
Briqadalar	
D xalı	Çətinlik xalı
E xalı	İcra xalı
R xalı	Briqada hakimlərinin xalı (tövsiyə)
D briqadası	Çətinlik dərəcəsini qiymətləndirir
E briqadası	Hərəkətlərin icrasını qiymətləndirir
R briqadası	Kontrol xal verir
Tələblər	
DV	Çətinlik xalı
CV	Birləşməyə görə əlavə xal
CR	Kompozisiyaya tələb
SB	Birləşmələrə görə üstəlik əlavə xal
Kompyüter sistemləri	
CIS	Şərhçilər üçün sistem
IRCOS	Video-qiymətləndirmə sistemi
JEP	Hakimlərin qiymətləndirmə sistemi

Lüğət

İcra keyfiyyəti	
İfadəlilik	Hissiyyatı və ya mənanı göstərmək
Hərəkətlərin dinamik icrası	Hərəkətlərin enerjili və güclü icrası
Kompozisiya	Hərəkətə tələblər
Xoreoqrafiya	Çıxışda rəqs hərəkətləri
Dəqiqlik	Hər bir hərəkətin dəqiq başlanğıcı və sonu, hərəkətləri özünə arxayın şəkildə icra etmək

MÜNDƏRİCAT

I HİSSƏ – Yarış iştirakçıları üçün qaydalar **1-ci Bölmə**

1-ci Bölmə – Məqsədlər **1**

2-ci Bölmə

2-ci Bölmə – Gimnastlar üçün qaydalar
Maddə 2.1 – Gimnastların hüquqları 1
Maddə 2.2 – Gimnastların öhdəlikləri 1
Maddə 2.3 – Gimnastların öhdəlikləri 2
Maddə 2.4 – Cərimələr 2
Maddə 2.5 – Gimnastların andı 3

3-cü Bölmə – Məşqçilər üçün qaydalar **3-cü Bölmə**
Maddə 3.1 – Məşqçilərin hüquqları 1
Maddə 3.2 – Məşqçilərin öhdəlikləri 1
Maddə 3.3 – Məşqçilərin davranışına görə cəzalar 2
Maddə 3.4 − Etirazlar 2
Maddə 3.5 – Məşqçilərin andı 3

4-cü Bölmə

4-cü Bölmə – Texniki Komitə üçün qaydalar 1
Maddə 4.1 – QTK Prezidenti 1
Maddə 4.2 – QTK üzvləri

5-ci Bölmə – Hakimlər üçün qaydalar və alətlər üzrə yarışlarda Hakimlər heyətinin strukturu **5-ci Bölmə**
1
2
Maddə 5.1 – Hakimlərin öhdəlikləri 2
Maddə 5.2 – Hakimlərin hüquqları 2
Maddə 5.3 – Alətlər üzrə yarışlarda hakimlər briqadasının tərkibi
Maddə 5.4 – Alətlər üzrə yarışlarda hakimlər briqadasının funksiyaları
D briqadası
E briqadası 3
R briqadası 4
Maddə 5.5 – Xronometristlərin, xətt hakimlərinin və katiblərin funksiyaları 4
Maddə 5.6 – Hakimlərin yerləri
Maddə 5.7 – Hakimlərin andı

II HİSSƏ – Hərəkətin qiymətləndirilməsi

6-cı Bölmə – Xalın müəyyənləşdirilməsi **6-cı Bölmə**
Maddə 6.1 – Ümumi 1
Maddə 6.2 – Yekun xalın çıxarılması 1
Maddə 6.3 – Qısa hərəkət 1

7-ci Bölmə – D xalı üçün qaydalar **7-ci Bölmə**
Maddə 7.1 – D xalı 1
Dayaqlı tullanma
Müxtəlif hündürlüklü qollar, gimnastika tiri,
Sərbəst hərəkətlər
Maddə 7.2 – Elementlərin çətinlik dərəcəsi (DV) 1
Maddə 7.3 – Kompozisiyaya tələblər (CR) 3
Maddə 7.4 – Birləşmələr (CV) 3

8-ci Bölmə –E xalı üçün qaydalar **8-ci Bölmə**
Maddə 8.1 – E xalının təsviri 1
Maddə 8.2 – E briqadasının verdiyi xal 1
Maddə 8.3 – Cərimələr cədvəli 2

9-cu Bölmə – Texniki göstərişlər **9-cu Bölmə**
Maddə 9.1 – Bütün alətlər 1
Maddə 9.2 – Gimnastika tiri və sərbəst hərəkətlər 1
Maddə 9.3 – Rəqs elementlərinə tələblər 2
4
Maddə 9.4 – Müxtəlif hündürlüklü qollar

III HİSSƏ – Alətlər

10-cu Bölmə

10-cu Bölmə – Dayaqlı tullanma 1

Maddə 10.1 – Ümumi 1
Maddə 10.2 – Qaçış 1
Maddə 10.3 – Dayaqlı tullanma qrupları 1
Maddə 10.4 – Tələblər 2
Maddə 10.5 − Xallar 3
Maddə 10.6 – Alətlər üzrə yarışlarda cərimələr

MÜNDƏRİCAT

11-ci Bölmə – Müxtəlif hündürlüklü qollar
Maddə 11.1 – Ümumi
Maddə 11.2 – Hərəkətin tərkibi və quruluşu
Maddə 11.3 – Kompozisiyaya tələblər (SR)
Maddə 11.4 – Birləşmələr (SV)
Maddə 11.5 – Kompozisiyaya görə cərimələr
Maddə 11.6 – Alətlərlə hərəkətlərdə cərimələr
Maddə 11.7− Qeydlər

12-ci Bölmə - Gimnastika tiri
Artistizm
Maddə 12.1 – Ümumi
Maddə 12.2 – Hərəkətin tərkibi
Maddə 12.3 – Kompozisiyaya tələblər (SR) Maddə 12.4 – Birləşmələr (SV)
Maddə 12.5 – Artistizm və xoreoqrafiyaya görə cərimələr
Maddə 12. 6 – Alətlərlə hərəkətlərdə cərimələr
Maddə 12.7 – Qeydlər

13-cü Bölmə - Sərbəst hərəkətlər *Artistizm*
Maddə 13.1 - Ümumi
Maddə 13.2 – Hərəkətin tərkibi
Maddə 13.3 – Kompozisiyaya tələblər (CR)
Maddə 13.4 – Birləşmələr (CV)
Maddə 13.5 – Artistizm və xoreoqrafiyaya görə cərimələr
Maddə 13.6 – Alətlərlə hərəkətlərdə cərimələr

IV HİSSƏ
14-cü Bölmə – Elementlər cədvəli
14.1 – Dayaqlı tullanma
14.2 – Müxtəlik hündürlüklü qollar
14.3 – Gimnastika tiri
14.4 – Sərbəst hərəkətlər

V HİSSƏ – Əlavələr
- *Simvollar cədvəli*
- *Hərəkətin qeydiyyatı üçün vərəqə*
- *Xalın qeydiyyatı üçün vərəqə*
- *Yuniorların yarışları üçün dəyişikliklər*
- *Simvollar broşürü*
- *BGF rəsmi yarışlarında ilk dəfə icra edilən elementlərin cədvəli.*

I HİSSƏ

Yarış iştirakçıları üçün qaydalar

1-5-ci Maddələr

I Hissə Yarış iştirakçıları üçün qaydalar

1-ci Bölmə – Məqsədlər

Məqsədlər

Yarış qaydaları aşağıdakı məqsədlər üçün nəzərdə tutulmuşdur:

1. Regional, milli və beynəlxalq yarışların bütün mərhələlərində hakimlik üçün.
2. BGF rəsmi yarışlarının dörd mərhələsində standart hakimlik üçün: təsnifat mərhələsi, komanda yarışlarının finalı, çoxnövçülük və ayrı-ayrı alətlər üzrə finallar.
3. İstənilən yarışlarda ən güclü gimnastın müəyyənləşdirilməsi üçün istifadə edilir.
4. Hərəkətlərin qurulması üzrə gimnastlar və məşqçilər üçün təlimatdır.
5. Yarışlar zamanı çox zaman hakimlərə, məşqçilərə və gimnastlara lazım olan müxtəlif texniki məlumatları təqdim edir.

2-ci Bölmə — Gimnastlar üçün qaydalar

Maddə 2.1 Gimnastların hüquqları

2.1.1 Ümumi

Gimnastın hüquqları:

a) çıxışının hakimlər tərəfindən dəqiq, ədalətli və yarışların qaydalarına qoyulan tələblərə müvafiq olaraq qiymətləndirilməsi;
b) təqdim etdiyi yeni tullanmanın və ya elementin xal dəyərini yarışın başlanmasına qədər yazılı şəkildə almaq;
c) bu yarışların qaydalarına müvafiq olaraq, çıxışından dərhal sonra onun xalının tamaşaçılara göstərilməsi;
d) Yarışların Hakimlər Briqadasının Sədrinin icazəsi ilə bütün hərəkətin təkrarlanması:

- əgər hərəkət gimnastın təqsiri olmadan dayandırılmışdırsa;
- əgər gimnastika xalçasının örtüyü cırılmışdırsa və bu səbəbdən gimnast yıxılmışdırsa, gimnast yıxılandan dərhal sonra və xalçanı tərk etməzdən əvvəl gimnast örtüyü D1 hakiminə göstərməlidir ki, hərəkəti təkrar icra etmək üçün icazə ala bilsin.
  - *Qeyd: gimnast öz hərəkətini alət üzərində sonuncu gimnastın çıxışından sonra təkrarən icra edə bilər. Əgər həmin gimnast sonuncudursa, o, öz hərəkətini Yarışların Hakim Briqadası ilə razılaşdırılmış istirahət vaxtından sonra təkrarən icra edəcəkdir.*

e) şəxsi səbəbə görə yarış zalını qısa müddətə tərk etmək (*Qeyd: yarışlar gimnasta görə gecikdirilməməlidir*);
f) nümayəndə heyətinin rəhbəri vasitəsilə öz çıxışının nəticələrini əldə etmək.

2.1.2. Alətlər

Gimnasın hüquqları:

a) məşq və isinmə hərəkətləri zallarında və xalça üzərində BGF rəsmi yarışlarının keçirilməsi üçün spesifikasiyalara və normalara uyğun olan eyni gimnastik alətlərlə və matlarla təmin edilmək;
b) müxtəlif hündürlüklü qollardan və gimnastika tirindən aşağı enmələr zamanı gimnast əsas matın üzərindən əlavə (10 sm) matdan istifadə edə bilər;
c) qollarda maqnezium tozundan istifadə etmək və maqnezium tozu ilə gimnastika tiri üzərində kiçik işarələr qoymaq;
d) qollarda hərəkətlər zamanı sığortalama üçün bir məşqçinin iştirakına icazə verilir;
e) yıxıldıqdan sonra özünü toparlamaq – qollarda 30 san. və gimnastika tirində 10 san.;
f) yıxılma zamanı və ya birinci və ikinci tullanışlar arasında məşqçi ilə danışmaq ;
g) pəncələri mata dəydiyi halda, qolları yuxarı qaldırmağı xahiş etmək;

İsinmə hərəkətləri

– **Təsnifat yarışlarında, çoxnövçülük yarışlarında və komanda hesabı üzrə final yarışlarında**

- yarışlar zamanı çıxış edən hər bir gimnasta (zədələnmiş gimnastın əvəzinə çıxış edən ehtiyat gimnast da daxil olmaqla) xalça üzərində bütün alətlərdə həmin yarışların texnki qaydalarına uyğun olaraq isinmə hərəkətləri etməyə icazə verilir.
  - Tullanma (komandalar və qarışıq qruplar)
    - Çoxnövçülük və komanda hesabı üzrə final – 2 cəhd
    - Ayrı-ayrı alətlər üzrə final üçün təsnifat və tullanmalar üzrə final – maksimum 3 cəhd
  - Gimnastika tiri, sərbəst hərəkətlər: 30 san.
  - Müxtəlif hündürlü qollar: qollarda 50 san. – qolların hazırlanması da daxil olmaqla.

Qeyd:

- *Təsnifat yarışlarında və komandaların final yarışlarında isinmə hərəkətləri üçün vaxt komandaya məxsusdur (**tullanma istisna olmaqla**).Komanda vaxtını elə bölüşdürməlidir ki, sonuncu gimnastın isinmə hərəkətləri üçün də vaxt qalsın.*
- *Qarışıq qruplarda isinmə hərəkətləri üçün vaxt gimnasta məxsusdur. İsinmə hərəkətləri zamanı gimnastların ardıcıllığı çıxışlardakı ardıcıllıqla eyni olmalıdır.*
- İsinmə hərəkətləri üçün verilmiş vaxt bitdikdə siqnal (qonq) çalınır. Əgər bu zaman gimnast alətin üzərindədirsə, tullanma və ya akrobatika elementi üçün qaçışa hazırlaşırsa və ya başlayıbsa, o, həmin elementi və ya birləşməni sona çatdıra bilər. Siqnal (qonq) çalındıqdan sonra aləti hazırlamaq olar (qollarda maksimum 2 nəfər), lakin ondan istifadə edilməsinə icazə verilmir.
- D1 hakimi gimnastın hərəkətin icrasına başlamasından 30 san. əvvəl işarə (BGF rəsmi yarışlarında – yaşıl işıq) verir.

Maddə 2.2 Gimnastın öhdəlikləri

a) Yarışların qaydalarını bilmək və özünü bu qaydalara uyğun aparmaq.
b) Xalça üzərində sınaqdan keçirmədən ən azı 24 saat əvvəl gimnast və ya onun məşqçisi yeni elementin qiymətləndirilməsi barədə Yarışların Hakimlər Briqadasının Sədrinə yazılı şəkildə müraciət etməlidir.
c) Əgər yarış zamanı gimnastın ayaqları mata toxunursa, alətin 10 sm qaldırılmasına icazə verilir. Bu barədə məşqçi müraciətində bildirməlidir. Yarışların Hakimlər Briqadasının Prezidenti və ya üzvü sınaqdan keçirmə zamanı bunu təsdiqləməlidir.

Maddə 2.3 Gimnastın öhdəlikləri

2.3.1 Ümumi

a) Hərəkətin əvvəlində və sonunda D1 hakiminə təzim etmək (1 və ya 2 əlini qaldırmaqla).
b) Yaşıl işarə verildikdən sonra 30 san. ərzində hərəkətlərə başlamaq (bütün alətlərdə).
c) Müxtəlif hündürlüklü qollardan yıxıldıqdan sonra 30 san., gimnastika tirindən yıxıldıqdan sonra 10 san. ərzində (vaxt gimnastın yıxıldıqdan sonra iki ayağı üstə durmasından sonra başlayır) hərəkəti davam etdirmək. Bu vaxt ərzində gimnast toparlana, maqnezium tozundan istifadə edə, məşqçi ilə danışa və alətə dırmana bilər.
d) Hərəkəti yerinə yetirdikdən dərhal sonra xalçanı tərk etmək.
e) İstənilən alətin hündürlüyünü dəyişdirmək (icazə almadan).
f) Yarışlar zamanı gimnast hakimlərlə söhbət etməməlidir.
g) Yarışları gecikdirməməlidir: hərəkəti yerinə yetirdikdən sonra xalça üzərində uzun müddət qalmaq və qaydaları digər tərzdə pozmaq və digər gimnastlara mane olmaq olmaz.
h) Özünü intizamsız və təhqiramiz şəkildə aparmamaq və digər gimnastlara mane olmamaq.
(məsələn, maqnezium tozu ilə xalça üzərində işarələr qoymaq, hərəkətə hazırlaşarkən alətin səthini zədələmək və ya gimnastika körpücüyünün üzərindən yayları götürmək, hərəkətə başlayanadək gimnast AQ altından keçməsi/qaçması.
i) Gimnastika tiri və müxtəlif hündürlüklü qollar üzərində bütün hərəkətlər ərzində əlavə matı yerdə saxlamaq (yerə enmək üçün).

j) Dayaqlı tullanma, müxtəlif hündürlüklü qollar və gimnastika tirində hərəkətlər zamanı yerə enmə üçün əsas matların (20 sm) üzərindən əlavə matdan (10 sm) istifadə etmək.
k) BGF protokoluna uyğun olaraq, mükafatlandırma mərasimində yarışların geyim formasında (triko /kombinezon) iştirak etmək.

2.3.2 Yarış forması

a) Gimnast şəffaf olmayan idman trikosu və ya gimnastik kombinezon (buddan aşıq-baldır oynağınadək kip yapışan şalvarlı triko) geyinməlidir, gimnastın geyimi zərif tərtibatda olmalıdır. Gimnast trikonun altından və ya üstündən triko ilə eyni rəngdə olan losinlər geyinə bilər.
b) Trikonun və ya kombinezonun yaxası arxadan kürək sümükləri səviyyəsindən aşağı olmamalı, öndən isə çox dərin (döş sümüyünün ortasına qədər) olmamalıdır. Triko və ya kombinezon qollu və ya qolsuz ola bilər; nazik çiyinbağılara icazə verilmir (ən azı 2 sm).
c) Trikonun kənarı aşağıda bud-çanaq oynağı büküşündən yuxarı olmamalıdır. Trikonun uzunluğu sağrılardan 2 sm aşağıdan keçirilmiş üfüqi xətdən yuxarı olmamalıdır.

d) Gimnast çust və ya corab geyinə bilər.
e) Gimnast BGF tərəfindən təqdim edilmiş nömrəni taxmalıdır.
    a. Müstəsna hallarda (arxası üstə çevrilmə) gimnastın yazılı xahişi və Yarışların Hakimlər Briqadasının icazəsi ilə gimnastika tirində hərəkətlərin və ya sərbəst hərəkətlərin icra edildiyi müddətdə nömrə çıxarıla bilər. Gimnast hərəkətin icrasına başlamazdan əvvəl nömrəni D1 hakiminə göstərməlidir.
f) Trikoda milli nişan BGF reklam haqqında qüvvədə olan qaydalarına uyğun olmalıdır.
g) Triko üzərində sponsorların loqosu, reklamı BGF reklam haqqında qüvvədə olan qaydalarına uyğun olmalıdır.
h) Təsnifat yarışlarında və komanda hesabı üzrə final yarışlarında vahid forma geyinilməlidir. Təsnifat yarışlarında eyni federasiyanın gimnastları (komandası olmayan) müxtəlif trikolarda/kombinezonlarda çıxış edə bilərlər.
i) Qollar üzərində örtüklərə, bandajlara və bintlərə icazə verilir. Onlar möhkəm bağlanmalı, yaxşı vəziyyətdə olmalı və diqqəti cəlb etməməlidirlər. Bej rəngli və ya dəri rəngli bintlərə üstünlük verilir.

j) Zərgərlik məmulatlarına (qolbaqlara və boyunbağılara) icazə verilmir. Gimnast yalnız kiçik mismarcıq tipli sırğalar taxa

bilər.

k) Budlara qədər uzanan və digər astarlar geyinməyə icazə verilmir.

Maddə 2.4 Cərimələr

a) 2-ci və 3-cü bölmələrdə təsvir edilmiş qaydaların pozulmasına görə cəzalar orta və böyük səhvlər hesab edilərək, davranış pozuntusuna görə 0.30 və alətlərdə hərəkətlər zamanı pozuntuya görə 0.50 verilir. Cərimə D1 hakimi tərəfindən həyata keçirilir və Yarışın Hakimlər Briqadasına bildirilir.

b) Əlavə cərimələr 8.3-cü Maddədə göstərilmişdir.

c) Ekstremal vəziyyətlərdə hakimlər cərimə xalı verərək gimnastı və ya məşqçini yarışlardan uzaqlaşdıra bilərlər.

Davranış pozuntusu **D Briqadasının məlumatından sonra Yarışların Hakimlər Briqadasının sədri tərəfindən**	
Yarış forması üzrə pozuntular Düzgün olmayan və ya qeyri-estetik astarlar Geyimdə milli nişan yoxdur və ya nişan düzgün yerdə deyildir Start nömrəsi yoxdur Düzgün olmayan forma – trikolar, bəzək əşyaları, bintlərin rəngi	Gimnastın / Alətlərdə hərəkətin xalından 0.30
Komanda yarışlarında formaya görə cərimələr Eyni olmayan trikolar *(bir komandadakı gimnastlar)*	1.0 Təsnifat yarışlarında və ya komandaların final yarışında pozuntunun qeydə alındığı alətdə - komanda xallarının cəmindən *(yarışlar ərzində bir dəfə)*
İcazəsiz xalça üzərində olmaq	yekun xaldan 0.30
Gimnast hərəkəti bitirdikdən sonra xalça üzərinə qayıtmışdır	yekun xaldan 0.30
Digər intizamsız və ya təhqiramiz hərəkət, o cümlədən, gimnastın D briqadasına təzimindən sonra AQ altından keçməsi/qaçması	yekun xaldan 0.30
Düzgün olmayan reklam nişanı	yekun xaldan 0.30 - məsul nümayəndələr tərəfindən tələb edildikdə Komanda Gimnast (fərdi yarışlar)
Mükafatlandırma mərasimində iştirak etməmək	Komandanın/gimnastın xalı/tutduğu yer ləğv edilir

Alətlərdə hərəkətlər zamanı pozuntular

D Briqadasının məlumatından sonra Yarışların Hakimlər Heyətinin Sədri tərəfindən	
Pozuntu	**Cərimə**
Maqnezium tozundan düzgün istifadə etməmək və ya alətin zədələnməsi	yekun xaldan 0.50
Gimnastika körpüsündə yayların yerini dəyişdirmək və ya çıxarmaq	yekun xaldan 0.50
İcazə olmadan aləti qaldırmaq	yekun xaldan 0.50

Maddə 2.5 Gimnastların andı (FIG TR 7.12.2)

“ Mən, Dünya Çempionatının (və ya BGF digər rəsmi yarışlarının) iştirakçısı olaraq, yarışların qaydalarına riayət etməyə, dopinqdən istifadə etməməyə, idmanın mənafeyi və gimnastların şərəfi naminə yarışmağa söz verirəm”.

3-cü Bölmə — Məşqçilər üçün qaydalar

Maddə 3.1 Məşqçilərin hüquqları

Məşqçilərin hüquqları:

a) alətin qaldırılması və ya yeni tullanmanın və ya elementin dəyərləndirilməsi üçün gimnastın və ya nümayəndə heyətinin adından yazılı müraciəti təqdim etmək (*Maddə 5.6);*

b) isinmə hərəkətləri zamanı, xalça üzərində, məsuliyyət daşıdığı gimnasta və ya komandaya bütün alətlərdə kömək etmək;

c) yarışlar üçün aləti hazırlamaqda gimnasta yardım etmək

- tullanma hərəkətində təhlükəsizlik matını hazırlamaq
- tullanmada, müxtəlif hündürlüklü qollar və gimnastika tiri üzərində hərəkətlərdə körpücüyü hazırlamaq və yerə enmə üçün əlavə matı qoymaq
- Müxtəlif hündürlüklü qollarda hərəkətdə - qolları hazırlamaq;

d) yaşıl işarə verildikdən sonra körpücüyü götürmək üçün xalça üzərində olmaq

- gimnastika tirində (və dərhal xalçanı tərk etmək)
- müxtəlif hündürlüklü qollarda – məşqçi və ya gimnast (və dərhal xalçanı tərk etmək);

e) körpücüyü götürən məşqçi və ya digər məşqçi müxtəif hündürlüklü qollarda hərəkət edən gimnasta kömək məqsədi ilə xalça üzərində ola bilər;

f) gimnastın yıxılması zamanı və ya 1-ci və 2-ci tullanmalar arasında gimnasta kömək etmək və ya onunla danışmaq;

g) yarışların qaydalarına müvafiq olaraq, gimnastın xalı çıxışdan dərhal sonra göstərilməlidir;

h) gimnast xəsarət aldıqda və ya alət nasaz vəziyyətdə olduqda bütün alətlərdə gimnasta kömək etmək;

i) D xalı ilə əlaqədar olaraq Yarışların Hakimlər Briqadasına sorğu təqdim etmək (TR 8.4);

j) Hərəkətin vaxtına uyğunlaşmama və xətdən kənara çıxma üzrə cərimələrlə əlaqədar olaraq Yarışların Hakimlər Briqadasına sorğu təqdim etmək.

Maddə 3.2 Məşqçilərin öhdəlikləri:

a) Hər bir məşqçi yarışların qaydalarını bilməli və bu qaydalara uyğun hərəkət etməlidir;

b) çıxış ardıcıllığını və yarışların qaydalarında və/və ya BGF texniki reqlamentində şərtləşdirilmiş digər informasiyanı təqdim etmək;

c) istənilən alətin hündürlüyünü dəyişdirməmək və ya körpücüklərdə yayları əlavə etmək, çıxarmaq və ya yerlərini dəyişmək (baxın: müxtəlif hündürlüklü qolların qaldırılması barədə Maddə 2.1.1);

d) yarışları ləngitməmək, hakimlərin qarşısında dayanmamaq və digər gimnastlara münasibətdə qaydaları pozmamaq;

e) gimnastla danışmamaq,ona işarələr verməmək, hərəkətlərin icrası zamanı onu ruhlandırmamaq;

f) yarışlar zamanı xalça kənarında hakimlərlə və/və ya arenadan kənarda digər şəxslərlə danışmamaq *(komandanın həkimi, nümayəndə heyətinin rəhbəri istisnadır)*

g) özünü intizamsız və ya təhqiramiz tərzdə aparmamaq.

h) peşəkar tərzdə davranmaq və ya idman alicənablığı göstərmək.

i) mükafatlandırma mərasimi zamanı idman alicənablığı nümayiş etdirmək.

Qeyd: Pozuntulara və idmançıya layiq olmayan davranışa görə cərimələrə baxın.

Xalça kənarında məşqçilərin yolverilən sayı

– Təsnifat yarışları və komandaların finalı:
tam komandalar üçün – 1 qadın və 1 kişi və ya 2 qadın; əgər məşqçi bir nəfərdirsə, kişi də ola bilər.
3,2 və ya 1 gimnastla çıxış edən ölkələr üçün – 1 məşqçi (qadın və ya kişi)
Çoxnövçülük və ayrı-ayrı alətlərdə final – hər gimnast üçün 1 məşqçi

3.3 Məşqçinin davranışına görə cərimələr

Yarışların Hakimlər Briqadasının Sədri tərəfindən (Yarışların Hakimlər Biriqadası ilə məsləhətləşdikdən sonra)	BGF rəsmi yarışları və qeydiyyatdan keçmiş digər yarışlar üçün vərəqələr
Gimnastın/komandanın xalına təsir etmədən məşqçinin davranışı	
− İdmançıya layiq olmayan davranış *(yarışların bütün mərhələlərində)*	1-ci dəfə – sarı vərəqə *(xəbərdarlıq)*
	2-ci dəfə – qırmızı vərəqə və məşqçinin xalçadan kənarlaşdırılması*
– Digər qalmaqallı, intizamsız və ya təhqiramiz davranış (*yarışların bütün mərhələlərində*)	Qırmızı vərəqə və məşqçinin xalçadan kənarlaşdırılması*

Gimnastın/komandanın xalına təsir etməklə məşqçinin davranışı	
İdmançıya layiq olmayan davranış *(yarışların bütün mərhələlərində)* *- məsələn, əsaslı səbəb olmadan yarışların ləngidilməsi və ya dayandırılması, alət üzərində hakimlərə müraciət (etiraz şikayətinin verilməsi üçün D1 hakimi istisna olmaqla)* - gimnast ilə danışmaq, işarələr vermək, hərəkətlərin icrası zamanı onu ruhlandırmaq	1-ci dəfə – 0.50 (*gimnastın/ komandanın alətlərdə xalından)* və sarı vərəqə *(xəbərdarlıq)*
	1-ci dəfə – **1.00** *(gimnastın/ komandanın alətlərdə xalından)* və sarı vərəqə *(xəbərdarlıq),* əgər məşqçi hakimlərə qarşı aqressiv danışırsa.
	2-ci dəfə – **1.00** *(gimnastın/ komandanın alətlərdə xalından),* qırmızı vərəqə və məşqçinin xalçadan uzaqlaşdırılması*
– Digər qalmaqallı, intizamsız və ya təhqiramiz davranış *(yarışların bütün mərhələlərində)* *Məsələn, yarışlar zamanı xalça kənarında icazəsiz dayanmaq.*	**1.00** *(gimnastın/ komandanın alətlərdə xalından),* qırmızı vərəqə və məşqçinin xalçadan uzaqlaşdırılması*

Qeyd: *Əgər iki hakimdən biri xalçadan uzaqlaşdırılırsa, bütün yarışlar ərzində onu **bir dəfə** əvəz etmək olar (məsələn, təsnifat yarışlarında).*

1-ci pozuntu = sarı vərəqə
2-ci pozuntu = qırmızı vərəqə, bundan sonra yarışların bütün mərhələlərində məşqçi xalça üzərində ola bilməz.

**Əgər nümayəndə heyətində bir məşqçi varsa, o, xalça üzərində qala bilər, lakin bu məşqçi növbəti Dünya Çempionatı və ya Olimpiada üçün akkreditasiya almayacaqdır.*

Maddə 3.4 Etirazlar

Texniki reqlamentin 8.4-cü Maddəsində daha ətraflı təsvir edilmişdir.

Maddə 3.5 Məşqçinin andı

"Məşqçilərin və nümayəndə heyəti üzvlərinin adından idman alicənablığı göstərməyə və Olimpiya hərəkatının əsaslarına uyğun hərəkət etməyə söz veririk. Bizim məqsədimiz – idmançılara BGF qaydalarına uyğun hərəkət etməyi və dopinqdən istifadə etməməyi öyrətməkdir".

4-cü Bölmə — Texniki Komitə üçün qaydalar

BGF Qadın gimnastikası üzrə Texniki Komitəsi

BGF rəsmi yarışlarında Yarışların Hakimlər Briqadası və alətlərdə müşahidəçilər Qadın gimnastikası üzrə Texniki Komitənin (QTK) üzvlərindən ibarət olurlar.

4.1 QTK Prezidenti

QTK Prezidenti və ya onun müavini Yarışların Hakimlər Briqadasına rəhbərlik edir və Yarışların Hakimlər Briqadasının digər üzvləri ilə birlikdə aşağıdakılara görə cavabdehlik daşıyırlar:

- **a)** BGF Texniki Reqlamentinə uyğun olaraq, yarışlara ümumi texniki rəhbərlik etmək;
- **b)** yarışların başlanmasınadək hakimlərin iclasını keçirmək və iclasa rəhbərlik etmək;
- **c)** hakimlər üçün qaydalarda göstərildiyi kimi, həmin yarışların qaydalarını tətbiq etmək;
- **d)** təqdim edilmiş yeni tullanmaları və elementləri dəyərləndirmək, qolların hündürlüyünün qaldırılması, zalı tərk etmək barədə müraciətləri və digər məsələləri nəzərdən keçirmək. Bu qərarlar, adətən, QTK tərəfindən qəbul olunur;
- **e)** yarışların planında göstərilmiş cədvələ əməl etmək;
- **f)** alətlərdə müşahidəçilərin işinə nəzarət etmək və lazım gəldikdə müdaxilə etmək. Gimnastın xəsarət alması, xəttdən kənara çıxma və vaxtla uyğunlaşmama ilə əlaqədar səhvlər istisna olmaqla, xal ekranda göstərildikdən sonra, onun dəyişdirilməsinə icazə verilmir;
- **g)** Texniki reqlamentdə (TR 8.4) göstərildiyi qaydada etiraz şikayətlərinə baxmaq;
- **h)** Yarışların Hakimlər Briqadasının üzvləri ilə birlikdə hakimlərə xəbərdarlıqlar edir və ya qənaətbəxş hakimlik etməyən və ya Hakim Andını pozan hakimləri digərləri ilə əvəz edir;
- **i)** QTK üzvləri ilə birlikdə yarışlardan sonra hakimlik səhvlərini tapmaq və nəticələri BGF İntizam komissiyasına təqdim etmək üçün yarışların tam təhlilini həyata keçirir;
- **j)** Alətlərin BGF alətlər üçün qaydalara uyğun olmasının yoxlanmasına nəzarət edir;
- **k)** adi və ya xüsusi vəziyyətlərdə hakim təyin edir;
- l) İK-nə/BGF-na hesabat təqdim edir, bu hesabat yarışlar bitdikdən sonra 30 gündən gec olmayaraq BGF Katibliyinə göndərilməli və aşağıdakı informasiyanı ehtiva etməlidir:
  - Yarışların keçirilməsi üzrə iradlar, gələcəkdə yarışların keçirilməsi üzrə tövsiyələr.
  - Hakimlərin işinin ətraflı təhlili (3 ay sonra) və aşağıdakılar barədə təkliflər:
    - ən yaxşı hakimlərin mükafatlandırılması
    - hakimlik üzrə tələbləri yerinə yetirməyən hakimlərə qarşı sanksiyaların tətbiq edilməsi
  - Yarışlar zamanı xalların verilməsinə bütün müdaxilələri əhatə edən siyahı
    - xalların ekranda göstərilməzdən əvvəl və sonra dəyişdirilməsi
  - D briqadasının hakimlərinin işinin texniki təhlili.

4. 2 QTK üzvləri

Yarışların hər bir mərhələsində, onlardan hər biri Yarışların Hakimlər Briqadasınıın üzvü və ya alətlərdə müşahidəçi olur.

QTK üzvlərinin öhdəlikləri:

- **a.** Hakimlərin iclaslarının keçirilməsində iştirak etmək, öz alətində hakimliyin düzgün aparılacağı qaydada rəhbərlik etmək;
- **b.** hakimlər üçün qaydaları ədalətlə, daima və qayda və meyarlara tam uyğun şəkildə tətbiq etmək;
- **c.** hərəkətin bütün tərkibini simvollarla qeydə almaq;
- **d.** D,R və İ briqadalarının işinin qiymətləndirilməsi üçün D və İ (nəzarət xalı) xallarını hesablamaq;
- **e.** hər bir hərəkətə görə verilən yekun xala nəzarət etmək;
- **f.** hər bir gimnastın yerinə yetirdiyi hərəkətə görə düzgün xal almasına nəzarət etmək və lazım gəldikdə müdaxilə etmək;
- **g.** məşq, isinmə hərəkətləri zallarında və yarış zalında alətlərin BGF təyin edilmiş normalarına uyğun olmasına nəzarət etmək.

5-ci Bölmə - Hakimlər üçün qaydalar və Alətlər üzrə hakimlər briqadasının strukturu

Maddə 5.1 Hakimlərin öhdəlikləri

Hər bir hakim verdiyi xala görə tam və fərdi qaydada məsuliyyət daşıyır.

Alətlər üzrə Hakimlər Briqadasının bütün üzvlərinin öhdəlikləri:

a) Aşağıdakı sənədlər üzrə tam və dəqiq biliklərə malik olmaq:
- BGF Texniki Reqlamenti
- Qadın idman gimnastikası üçün BGF yarış qaydaları
- BGF Hakimləri üçün qaydalar
- Hakimlik üçün zəruri olan digər texniki məlumatlar;

b) cari dövr üçün Breve hakimlik vəsiqəsinə və yarış kitabçasına malik olmaq və onları təqdim etmək;
c) mövcud yarışlarda icazə verilən kateqoriyaya malik olmaq;
d) müasir gimnastikanı yaxşı anlamaq və hər bir qaydanın mənasını, məqsədini, interpretasiyasını və tətbiqini anlamaq;
e) yarışlara qədər hakimlərin iclasında iştirak etmək (iştirak etmədikləri müstəsna hallar BGF/QTK tərəfindən nəzərdən keçirilir);
f) təşkilati məsələlərin və ya hakimlər üçün xüsusi təlimatların müzakirə edildiyi iclasda iştirak etmək (məsələn, xalların daxil edilməsi üçün kompüter sistemindən istifadə edilməsi);
g) alətlərin sınaqdan keçirilməsi zamanı xalça üzərində olmaq (bütün hakimlər üçün mütləqdir);
h) bütün alətlərdə hakimlik etmək üçün hazır olmaq;
i) aşağıdakı funksiyaları həyata keçirmək:
- Hakimlik vərəqələrini düzgün doldurmaq
- Kompüterdən və mexaniki avadanlıqdan istifadə etmək
- Yarışların optimal şəkildə keçirilməsini təmin etmək
- Digər hakimlərlə səmərəli ünsiyyət qurmaq

j) Yarışların cədvəlində göstərildiyi kimi, iclasa ən azı bir saat əvvəl hazır, istirahət etmiş vəziyyətdə gəlmək və punktual olmaq.

k) BGF rəsmi formasını geyinmək (tünd göy rəngli kostyum – ətək və ya şalvar və ağ rəngdə köynək), Olimpiya Oyunları istisnadır, burada forma təşkilat komitəsi tərəfindən təqdim edilir.

Yarışlar zamanı hakimin öhdəlikləri:

a) Peşəkarcasına və nəzakətlə davranmaq;
b) 5.4-cü maddədə təsvir edilmiş funksiyaları yerinə yetirmək;
c) hər bir hərəkəti dəqiq, cəld, obyektiv, ədalətli, əxlaqlı qiymətləndirmək və şübhələr yarandığı halda üstünlüyü gimnasta vermək;
d) simvolların olduğu vərəqələrdən istifadə etmək və verdiyi xalları qeyd etmək;
e) yarışlar zamanı hakim öz yerini tərk etməməlidir (D1 hakiminin icazə ilə – istisnadır) və digər şəxslərlə, məsələn, məşqçilərlə, nümayəndə heyətlərinin rəhbərləri ilə və briqadadakı digər hakimlərlə ünsiyyət qurmamaq və/və ya müzakirələr aparmamaq.

Hakimliyi yaxşı yerinə yetirməməyə və pis davranışa görə cəzalar BGF hakimlər üçün qaydalarına və ya yarışların texniki reqlamentinə uyğun olaraq veriləcəkdir.

Maddə 5.2 Hakimlərin hüquqları

Alətlər üzrə müşahidəçi müdaxilə etdiyi halda, hakim, verdiyi xalı izah etmək və xalı dəyişməyə razılaşmaq (razılaşmamaq) hüququna malikdir. Fikir ayrılığı yarandığı halda, Yarışların Hakimlər Briqadası hakimin verdiyi xalı dəyişdirə və qəbul edilmiş qərar barədə hakimə məlumat verə bilər.

Hakimə qarşı sanksiya tətbiq edildiyi halda, o, aşağıdakılara etiraz şikayəti vermək hüququna malikdir.
- sanksiya alətlər üzrə müşahidəçi tərəfindən tətbiq edilmişdirsə, Yarışların Hakimlər Briqadasına və ya
- sanksiya Yarışların Hakimlər Briqadası tərəfindən tətbiq edilmişdirsə, Apelyasiya kollegiyasına.

Maddə 5.3 Alətlər üzrə Hakimlər Briqadası tərkibi (Hakim briqadaları)

BGF rəsmi yarışlarında, Dünya Çempionatlarında və Olimpiya Oyunlarında alətlər üzrə Hakimlər Briqadası D Briqadasından (Çətinlik), E Briqadasından (İcra) və R Briqadasından (Tövsiyə) ibarət olur.
– D Briqadası püşkatmanın nəticələrinə uyğun olaraq və BGF texniki reqlamentinin qaydaları üzrə seçilir.
– E Briqadası və əlavə hakimlər püşkatmanın nəticələrinə uyğun olaraq və BGF texniki reqlamentinin qaydaları və ya yarışların qaydaları üzrə seçilir.

– R Briqadası BGF-nin prezident komissiyası tərəfindən təyin edilir.

Müxtəlif yarışlar üçün hakim briqadalarının strukturu:

DÇ və OO **9 hakimdən ibarət briqada**	Beynəlxalq yarışlar **Ən azı 4 hakim**
2 **D -** hakim	2 **D -** hakim
5 **E** - hakim 2 **R** - hakim	2/4 **E –** hakimlər

Xətt hakimləri və xronometristlər

- Sərbəst hərəkətlər üzrə iki (2) xətt hakimi
- Dayaqlı tullanma hərəkətləri üzrə bir (1) xətt hakimi
- Sərbəst hərəkətlər üzrə bir (1) xronometrist
- Müxtəlif hündürlüklü qollarda hərəkətlər üzrə bir (1) xronometrist
- Gimnastika tirində hərəkətlər üzrə iki (2) xronometrist

Beynəlxalq və milli yarışlarda briqada tərkiblərinin dəyişdirilməsinə icazə verilir.

Maddə 5.4 Alətlər üzrə hakimlərin funksiyaları

5.4.1 D briqadasının funksiyaları

a) D briqadası bütün hərəkətləri simvollarla qeyd edir, hərəkətləri müstəqil və qərəzsiz olaraq qiymətləndirir. Hərəkətin icrası başa çatdıqdan sonra briqada birlikdə D xalını müəyyənləşdirir. Xalın müzakirə olunmasına icazə verilir.

b) D^2 hakimi D xalını kompüterə daxil edir.

c) D xalına aşağıdakılar daxildir:

- Elementlərin çətinlik dərəcələrinin dəyəri
- Kompozisiyaya tələblər
- Hər bir alətdə birləşmələrə görə əlavə xallar

d) Tullanma hərəkətləri üzrə D briqadası tullanma üzrə isinmə hərəkətləri zamanı vaxta uyğunlaşmaya görə məsuliyyət daşıyır.

D^1 hakiminin funksiyaları :

a) Briqada ilə alət üzrə müşahidəçi arasında vasitəçidir. Alət üzrə müşahidəçi zərurət olduqda Yarışların Hakimlər Briqadası ilə əlaqə saxlayır.

b) Xətt hakimlərinin, xronometristlərin və katiblərin işini əlaqələndirir.

c) İsinmə hərəkətlərinin vaxtına nəzarət də daxil olmaqla, alətdə yarışların optimal keçirilməsini təmin edir.

d) Hərəkətin başlanması üçün 30 saniyə ərzində yaşıl işarəni qoşur və ya digər işarəni göstərir**.**

e) Vaxtla uyğunlaşmamağa, xalçadan kənara çıxmaya və intizamsızlığa görə cərimə xallarının yekun xalın göstərilməsindən əvvəl çıxılmasına nəzarət edir.

f) Aşağıdakı cərimə xallarının çıxılmasına nəzarət edir:

- Gimnast hərəkətin icrasına qədər və icrasından sonra təzim etmədi.
- Hesaba alınmamış tullanmaya görə 0.00 xalı.
- Tullanma, hərəkətin icrası və ya sıçramalar zamanı sığortalanma
- Hərəkətin qısa olması

Yarışlar sona çatdıqdan sonra D briqadasının öhdəlikləri:

QTK Prezidenti tərəfindən verilmiş təlimata uyğun olaraq yarışlar üzrə yazılı hesabatı təqdim etmək, yazılı hesabat aşağıdakı məlumatları ehtiva etməlidir:

- gimnastın nömrəsi və soyadı göstərilməklə, bütün pozuntular və xal üzrə qəbul edilmiş şübhəli qərarlar sadalanmaqla hesabat.
- məşvərət zamanı hakimlər hərəkətlərin simvollarla qeydlərini təqdim etməlidirlər. Yarışların sonunda simvolların qeyd edildiyi vərəqələr alət üzrə müşahidəçiyə təhvil verilir.

5.4.2 E briqadasının funksiyaları
Hakimlərin öhdəlikləri

a) Hərəkətin qiymətləndirilməsi zamanı diqqətli olmaq, səhvlərə uyğun cərimə xallarını dəqiq, müstəqil olaraq və digər hakimlərlə məsləhətləşmədən tətbiq etmək.

b) Aşağıdakı cərimə xallarını qeyd etmək:

- ümumi cərimə xalları
- alətdə hərəkətlərin icrasına görə xüsusi cərimə xalları
- artistizmin yetərli olmamasına/ ümumiyyətlə olmamasına görə cərimə xalları

c) Xalların qeyd edildiyi vərəqələri aydın imza ilə doldurmaq və ya cərimə xallarını komputerə düzgün daxil etmək.
d) Zərurət olduqda bütün hərəkətlərin qeydlərini təqdim etmək.

Maddə 5.4.3 R hakimlərinin funksiyaları

R hakimləri Olimpiya Oyunlarında və Dünya Çempionatlarında iştirak etməklə, hərəkətlərin icrasına və artistizmə görə verilmiş xallara cəld və avtomatik düzəliş edirlər.

R briqadasında 2 hakim olur. R briqadası BGF-nin İRKOS-un olduğu istənilən rəsmi yarışlarında iştirak edə bilər. Digər yarışlarda R briqadasının olması mütləq deyildir.

Maddə 5.5 Xətt hakimlərinin, xronometristlərin və katiblərin funksiyaları

5.5.1 Xətt hakimlərinin və xronometristlərin funksiyaları

Bu hakimlər Breve –yə malik olan hakimlər arasından püşkatmanın nəticələrinə əsasən seçilirlər və aşağıdakı funksiyaları yerinə yetirirlər:

Xətt hakimləri

- tullanma və sərbəst hərəkətlər üzrə xətt hakimləri gimnastın xalçadan və ya tullanmada "dəhliz" xəttindən kənara çıxmasını bayrağı yuxarı qaldırmaqla göstərir.
- xətt hakimi cərimə xalı barədə D1 hakiminə məlumat verir və məlumatı yazılı formada təqdim edir (imzalayaraq).

Xronometristlər

- hərəkətin vaxtına nəzarət edirlər (gimnastika tiri və sərbəst hərəkətlər)
- yıxılma zamanı vaxtı qeyd edirlər (gimnastika tiri və müxtəlif hündürlüklü qollar)
- yaşıl işarənin qoşulmasından hərəkətin başlanmasınadək keçən vaxtı qeyd edirlər.
- isinmə hərəkətləri zamanı vaxta əməl edilməsinə nəzarət edirlər (pozuntu zamanı yazılı formada D briqadasına məlumat verirlər)
- səs siqnalı ilə gimnasta vaxt barədə xəbərdarlıq edirlər (gimnastika tirində)
- pozuntu və ya cərimə xalı zamanı yazılı şəkildə D briqadasına məlumat verirlər.
- elektron tabloların olmadığı yarışlarda vaxtın aşılma müddətini hakim dəqiq qeyd etməlidir.

- **5.5.2 Katiblərin funksiyaları**
- Katiblər, adətən, Təşkilat Komitəsi tərəfindən təyin edilirlər. Onlar yarışların qaydalarını bilməli və komputerdən istifadə etməyi bacarmalıdırlar.
- D1 hakiminin nəzarəti altında alətlərdə onlar informasiyanın komputerə düzgün daxil edilməsinə cavabdehdirlər:
  - komandaların və gimnastların çıxış ardıcıllıqlarına əməl edilməsi
  - yaşıl və qırmızı işığın qoşulması
  - yekun xalın düzgün göstərilməsi.

Maddə 5.6 Hakimlərin yerləri

Hakimlərin yerləri elə yerləşməlidir ki, onlar gimnastın bütün hərəkətinin icrasını yaxşı görə bilsinlər.

– Alətin mərkəzi və alət üzrə D briqadasının yerləşdiyi yer bir xətt üzərində olmalıdır.

– Xronometristlər alətlər üzrə Hakimlər Briqadasının yanında yerləşməlidirlər (istənilən tərəfdən).

– Xətt hakimləri əks küncdə yerləşməlidirlər və onlara ən yaxın 2 xəttə nəzarət etməlidirlər.

– Tullanma üzrə xətt hakimləri yerə enmə matının ən uzaq küncündə yerləşməlidirlər.

– E briqadasının yerləşməsi: alətin ətrafında saat əqrəbi istiqamətində D briqadasının solundan başlayaraq (şəklə baxın)

Tullanma:

2	R2	3		4	
1	R1	D^2	D^1	Katib	5

Qollar

2	3	R1		4	
1	D^2	D^1	Katib	R2	5

Gimnastika tiri:

2	3	R2		4	
1	R1	D^2	D^1	Katib	5

S/h:

2	3		R2	4	
R1	1	D^2	D^1	Katib	5

Yarış zalında şəraitdən asılı olaraq hakimlərin yerləşməsini dəyişdirmək olar.

5.7 Hakimlərin andı (TR 7.12)

Dünya Çempionatlarında və digər mühüm beynəlxalq yarışlarda Hakimlər heyəti və hakimlər aşağıdakı andı içməlidirlər:

"Mən söz verirəm ki, Dünya Çempionatında (və ya BGF-nin digər yarışlarında) hakimlik zamanı, yarışların qaydalarına hörmətlə yanaşmaq və onlara əməl etməklə, idman alicənablığı ruhunda obyektiv hakimlik edəcəyəm."

II HİSSƏ

Hərəkətlərin qiymətləndirilməsi

6-9-cu Maddələr

II Hissə Hərəkətin qiymətləndirilməsi
Maddə 6 — Xalın çıxarılması

6.1 Ümumi

Hərəkətlərin qiymətləndirilmə qaydaları və yekun xalın çıxarılması bütün yarışlar (təsnifat, komanda yarışlarının finalı, çoxnövçülük üzrə final, alətlər üzrə final) üçün eynidir, lakin tullanma hərəkətləri istisnadır, burada təsnifat və alətlər üzrə final yarışlarında xüsusi qaydalar vardır (Maddə 10).

6.2 Yekun xalın çıxarılması

a) Hər bir alət üzrə yekun xal ayrı-ayrılıqda verilən iki xaldan ibarətdir – D xalı və İ xalı.

b) D xalı hərəkətin tərkibinə görə D xalını, E briqadası isə hərəkətin icrasına və artistizmə görə E xalını verir.

c) Yekun xal D və İ xallarının cəmidir. Xala neytral cərimə xalları da daxildir (baxın 5.4.1).

d) Çoxnövçülükdə toplanmış xallar – hər bir alətdə alınmış xalların cəmidir.

e) Komandanın topladığı xallar yarışların texniki qaydaları nəzərə alınmaqla hesablanır.

f) Komanda yarışlarının finalına təsnifat, çoxnövçülük üzrə final və alətlər üzrə final yarışları, yarışların texniki qaydalarına uyğun olaraq keçirilir.

g) Hərəkətin təkrarən icra edilməsinə icazə verilmir.

Yükun xalın çıxarılması

D xalı + E xalı* = yekun xal

Xalın çıxarılmasının nümunəsi:

– D xalı		
Çətinlik (3 C-, 3 D-, 2 İ-)		+ 3.10 .
Kompozisiyaya tələblər		+ 2.00
Birləşmələr		+ 0.60.
	D xalı	**5. 70**
– E xalı		10.00 X.
Hərəkətlərin icrası	– 0.70	
Artistizm	– 0.30	– 1.00
	E xalı	**9.00**
	Yekun xal	**14.70**

***E xalı**: hərəkətlərin icrasına və artistizmə görə cərimə xallarının cəmi 10.00-dan çıxılır. E xalının çıxarılması zamanı ən kiçik və ən yüksək xallar atılır və üç xaldan orta xal hesablanır.*

6.3 Qısa hərəkət

Gimnast hərəkətin icrasına və artistizmə görə maksimal 10.00 xal ala bilər.

Hərəkətin qısa olmasına görə D briqadası tərəfindən cərimələr (yekun xaldan)

7 və daha çox element	– cərimə yoxdu ı
5-6 element	− 4.00
3-4 element	− 6.00
1-2 element	− 8.00
Elementlər yoxdur	− 10.00

Məsələn: **Sərbəst hərəkətlər**

Gimnast 3 elementi icra etdikdən sonra yıxılır və zədə alır

 (ilkin olaraq pəncələr üzərinə enmədən)

Xal:

D xalı		
DV (A + C + A + 0 + 0 + E)		+ 1.00 R.
CR # 2, # 3 #4		+ 1.00 R.
	D xalı:	**+ 2.00 R.**

Hərəkətlərin icrasına və artistizmə görə **E xalı maksimum 10.00 ola bilər.**

Cərimələr (2 yıxılma, hündürlük, amplituda və s.	– **4.10**
E xalı	**5.90**
Yekun xal	**7.90**

Qısa hərəkətə görə cərimələr çıxıldıqdan sonra yekun xal:
7.90 – 6.00 (qısa hərəkət) = **1.90**

7-ci Bölmə — D xalı üçün qaydalar

7.1 D xalı (Hərəkətin tərkibi)

- Tullanma hərəkətlərində D xalı elementin Çətinlik dərəcələri Cədvəlindəki çətinlik dərəcəsidir.

- Qollarda, gimnastika tirində hərəkətlər və sərbəst hərəkətlər zamanı D xalı ən çətin 8 elementin cəmindən, kompozisiyaya tələblərdən və birləşmələrə görə əlavə xallardan ibarətdir.

7.2. Elementin dəyəri (çətinlik dərəcəsi) (DV)

Hərəkətin qurulması zamanı rəqs və gimnastika elementlərinin artistik icrası əsas götürülməlidir.

Çətinlik dərəcəsi (DV) – yarış qaydalarında Çətinlik dərəcələri Cədvəlindəki elementlərdir. Cədvəl məhdud deyildir, tələblər üzrə genişləndirilə bilər.

- Qollarda, gimnastika tirində hərəkətlər və sərbəst hərəkətlər zamanı Çətinlik dərəcəsinə sıçrama da nəzərə alınmaqla, **8** ən çətin element daxil olur.
- Elementin çətinlik dərəcəsi D briqadası tərəfindən hesablanır. Elementin icrasına texniki tələblər yerinə yetirilmədikdə - yalnız bu halda element hesaba alınmır.

– Elementlərin çətinlik dərəcələri
  - A- = 0.10 .
  - B- = 0.20
  - C- = 0.30
  - D- = 0.40
  - E- = 0.50
  - F- = 0.60
  - J- = 0.70
  - H = 0.80
  - İ = 0.90

7.2.1 Elementlərin çətinlik dərəcələrinin (DV) təsdiq edilməsi

a) Çətinlik dərəcəsi alması üçün element Çətinlik dərəcələri Cədvəlində göstərilmiş bədən vəziyyətində yerinə yetirilməlidir.

b) Hərəkətdəki elementə çətinlik dərəcəsi yalnız bir dəfə verilir (xronoloji ardıcıllıqla).

c) **Ərəb saltoları irəliyə elementlər hesab edilir.**



d) **Eyni və müxtəlif elementlərin təsdiq edilməsi**

  – Çətinlik dərəcələri Cədvəlində eyni nömrəli müxtəlif rəqs elementlərinə çətinlik dərəcəsi bir dəfə xronoloji ardıcıllıqla verilir.
  – Hesaba alınan dönmələrin maksimal sayı:

- Passedə dönmələr - 4/1 *(1440°)*
  (5/1 dönmə *4/1* dönmə ilə eyni element hesab edilir*)*
- Ayaqların müxtəlif vəziyyətləri ilə bütün digər dönmələr - 3/1 *(1080°)*
- Uzununa və ya köndələn şpaqata tullanmalar (məsələn,) -1½ *(540°)*
- Çətin tullanma və sıçrayışlar (məsələn,  - 1/1 (360°)

e) Əgər elementlər Çətinılik dərəcəsi Cədvəlində **müxtəlif nömrələrə** malikdirlərsə, onlar **müxtəlif** elementlər hesab edilir.

f) Əgər elementlər Çətinılik dərəcəsi Cədvəlində eyni nömrə altındadırlarsa, onlar **eyni elementlər** hesab edilirlər və

Qollarda

– tutmanın növbələşməsi ilə və növbələşməsi olmadan sıçrayışla yerinə yetirildikdə.
– ayaqlar aralı və ya birlikdə, bud-çanaq oynağında bucaqla və ya bucaqsız irəliyə və geriyə fırlanmalar.
– ayaqlar aralı və ya birlikdə, dayaqlı irəliyə və geriyə fırlanmalar.

Rəqs elementləri

- Tullanma zamanı ayaqlar eyni vəziyyətdə olmaqla, bir və ya iki ayaqla təkan vermək, məsələn, bir və ya iki ayaqla təkan verərək tapança vəziyyəti
- tirin uzununa və ya tirə köndələn yerinə yetirilmiş elementlər
  - Uzununa icra edilmiş tullanmalar köndələn icra edilmiş tullanmalara nisbətən bir qrup yüksək çətinlik dərəcəsi alırlar.
  - Əgər eyni element həm uzununa, həm də köndələn icra edilmişdirsə, çətinlik dərəcəsi bir dəfə, xronoloji ardıcıllıqda verilir.
  - Uzununa vəziyyətdən başlayaraq köndələn vəziyyətlə bitən və əksinə tullanmalar köndələn vəziyyətdə yerinə yetirilmiş elementlər hesab edilir (əlavə 90° elementi dəyişmir).
- Bir və ya iki ayaq üzərinə enmə (gimnastika tiri)
- Bir və ya iki ayaq üzərinə və ya uzanma vəziyyətinə enmək (s/h)

Akrobatika elementləri

- Bir və ya iki ayaq üzərinə enməklə elementlər.

Elementlər, Elementlər cədvəlində müxtəlif nömrələr altındadırlarsa, onlar <u>müxtəlif</u> elementlər hesab edilirlər.

Aşağıdakı hallarda elementlər cədvəldə eyni nömrələr altında olsalar da, ***müxtəlif*** hesab edilirlər:

Akrobatika elementləri:

- saltoda bədənin müxtəlif vəziyyətləri (qruplaşaraq, bükülərək və ya beli açıq)
- müxtəlif dönmə dərəcələri ½, 1/1, 1½(180°- 360°-540°), və s.
- bir və ya iki əlin dayaq verilməsi ilə və ya əllərlə dayaq verilmədən icra edilən elementlər
- akrobatika elementlərində bir və ya iki ayaqdan təkan verməklə icra edilən elementlər.

Rəqs elementləri:

- Bir ayaq üstə dönmələr (irəliyə/arxaya çiyinlə) yalnız bir birbaşa birləşmədə icra edildikdə müxtəlif elementlər hesab edilirlər. DV hər iki elementə görə verilir (passe vəziyyəti və ya ayağın üfüqi səviyyədən aşağı olduğu vəziyyət istisnadır).

7.2.2 Elementlərin hesaba alınması xronolji ardıcıllıqla yerinə yetirilir.

a) Elementin icrasına qoyulan texniki tələblər yerinə yetirilmədiyi halda
  - Elementlər Cədvəlindən digər element verilir
  - DV verilmir və ya
  - bir qrup aşağı çətinlik dərəcəsi verilir.

b) Əgər element, elementin icrasına texniki tələblərin yerinə yetirilməməsi səbəbindən digər bir element kimi (Elementlər cədvəlindən) hesaba alınırsa və hərəkətdə element düzgün texnika ilə təkrarlanırsa hər iki elementə çətinlik dərəcəsi (DV) verilir.

- *Nümunə*: Əyilmədən addımlayaraq halqa vəziyyətinə tullanma – addımla tullanma hesab edilir. Əgər addımla halqa vəziyyətinə tullanma sonradan düzgün texnika ilə icra edilirsə, o, addımla halqa vəziyyətinə tullanma kimi hesaba alınır, çünki hər iki element Elementlər Cədvəlində mövcuddur.
- *Nümunə, gimnastika tiri*: ✓ dönmə, bütün dönmə ərzində ayağın üfüqi səviyyədə hərəkətsiz saxlanmaması səbəbindən, Elementlər Cədvəlindən digər bir element kimi ○ hesaba alınmışdır. Əgər sonradan dönmə düzgün texnika ilə icra edilirsə, o, hesaba alınır.

c) Əgər elementin icrasına texniki tələblərin yerinə yetirilməməsi səbəbindən bir qrup aşağı çətinlik dərəcəsi olan element hesaba alınırsa və element yenidən icra edilirsə, bu, təkrar hesab edilir və element çətinlik dərəcəsi (DV) almır.

- *Nümunə*: qollar –540° dönməklə arxaya böyük fırlanma bir qrup aşağı çətinlik dərəcəsi alır, (C) çünki gimnast dönmənin başlanmasınadək duruş vəziyyətinə çatmayıb. Əgər bu element duruş vəziyyətində 540° dönməklə yerinə yetirilirsə, çətinlik xalı (DV) verilmir.

7.2.3 Yeni tullanmaların, elementlərin və birləşmələrin təsdiq edilməsi

BGF gimnastlara və məşqçilərə hələ icra edilməmiş və / və ya mövcud Elementlər Cədvəlində mövcud olmayan yeni tullanmaları və elementləri istənilən vaxt elektron poçt, faks və ya poçt vasitəsilə göndərməyi tövsiyə edir. QTK həmçinin, hələ icra edilməmiş elementləri nəzərdən keçirəcəkdir.

a) Prinsip etibarilə, yalnız icra edilmiş elementlər Elementlər Cədvəlinə daxil ediləcəkdir.
b) Yeni elementi hesaba almaq üçün, o, BGF-nin rəsmi yarışlarında ilk dəfə uğurla (yıxılmadan) icra edilməlidir:

- *Olimpiya Oyunları*
- *Dünya Çempionatı*
- *Gənclərin Olimpiya Oyunları*

c) Əgər birdən artıq gimnast elementi ilk dəfə icra edərsə, element gimnastın şərəfinə adlandırılmayacaqdır. Element ən azı C qrupundan olmalıdır.

d) Yeni elementlər İş planında göstərilmiş müddətdən (gün, saat) gec olmayaraq təqdim edilməlidirlər. Elementin qiymətləndirilməsi üzrə müraciətə elementin texniki təsviri, habelə DVD əlavə edilməlidir.

e) BGF QTK aşağıdakıları qiymətləndirəcəkdir:

– Yeni tullanmaların çətinlik dərəcəsini *(qrupu və nömrəsi)*
– Yeni elementlərin çətinliyini
– Birləşmənin mürəkkəbliyini

f) BGF rəsmi yarışları üçün elementin dəyərinin qiymətləndirilməsi gimnastın daha əvvəllər digər yarışlarda aldığı dəyərdən fərqli ola bilər.

g) Yeni tullanmaların və elementlərin dəyəri barədə qəbul edilmiş qərar haqqında aşağıdakılara yazılı şəkildə məlumat veriləcəkdir:

– Elementin dəyərinin qiymətləndirilməsi barədə müraciət göndərmiş Federasiyaya.
– Hakimlər üçün seminarın və yarışlardan əvvəl hakimlərin iclasının keçirilməsi zamanı hakimlərə.

Beynəlxalq yarışlarda yeni tullanmalar və elementlər yarışların texniki direktoruna və/və ya BGF texniki nümayəndəsinə təqdim edilə bilər. Elementin dəyəri barədə qərar yarışlardan əvvəl texniki iclasda qəbul edilir.

a) Bu qərar **yalnız** bu yarışlar zamanı qüvvədədir.

- Yeni tullanmalar/elementlər QTK –nin növbəti iclasında nəzərdən keçirilmələri üçün QTK prezidentinin texniki nümayəndəsinə təqdim edilməlidir.
- Bu elementlər yalnız təqdim edildikdən, təsdiq edildikdən və BGF rəsmi yarışlarında icra edildikdən sonra Yarış Qaydalarına Əlavələrdə öz əksini tapacaqdır.

- **7.3 Kompozisiyaya tələblər (CR) 2.00 B.**

Kompozisiyaya tələblər hər bir alət üzrə Maddələrdə təsvir edilmişdir. Bu tələblərin yerinə yetirilməsinə görə gimnast maksimum 2.00 B ala bilər.

- Yalnız Cədvəldə olan elementlər üzrə kompozisiyaya tələbləri yerinə yetirmək olar.
- Eyni element birdən artıq CR yerinə yetirə bilər, lakin bu element digər CR icra edilməsi üçün təkrarlana bilməz.

7.4 Birləşmələrə görə əlavələr (CV)

Qollarda, gimnastika tirində hərəkətlər və s/h zamanı müxtəlif unikal və mürəkkəb kombinasiyaların yerinə yetirilməsi yolu ilə əlavə xallar əldə etmək mümkündür.

a) CV-dəki elementlər mütləq qaydada DV-də hesablanan 8 elementdən olmamalıdır. Bütün elementlər Elementlər Cədvəlindən olmalıdır.

b) Qollarda, gimnastika tirində və s/h-də CV əlavələri:
+0.10
+0.20
+0.30

c) Alətlərdə birləşmələrə görə əlavələrin düsturları 11, 12 və 13-cü Maddələrdə təsvir edilmişdir.

d) Dəyəri azaldılmış elementlər birləşməyə görə əlavənin alınması üçün istifadə edilə bilər.

e) Əlavə xal yalnız birləşmənin yıxılmadan icrası zamanı verilir.

7.4.1 Birbaşa və vasitəli birləşmələr

Bütün birləşmələr **birbaşa** olmalıdır. Yalnız sərbəst hərəkətlər zamanı akrobatik birləşmələr, **vasitəli** ola bilər**.**

Birbaşa birləşmələrdə elementlər aşağıdakı kimi yerinə yetirilir:

a) Elementlər arasında fasilə olmadan
b) Elementlər arasında əlavə addım olmadan
c) Elementlər arasında pəncə ilə tirə toxunmadan
d) Elementlər arasında tarazlıq itirilmədən

e) 1-ci elementin sonunda və 2-ci elementin başlanğıcında ayaqlara\bud-çanaq oynağı həddən artıq açılmadan
f) əlləri əlavə yelləmədən

Vasitəli birləşmələrdə *(yalnız sərbəst hərəkətlər -də akrobatik seriyalar*) birbaşa birləşmiş uçuş fazalı və əllərlə dayaq verilən akrobatik elementlər (*3-cü qrupdan,* məsələn, hazırlıq elementləri kimi rondat flyak) saltolar arasında yerinə yetirilir.

Sərbəst hərəkətlərdə birbaşa və vasitəli birləşmələrin **hesablanması** gimnastın xeyrinə olmalıdır.

Gimnastika tirində, qollarda və sərbəst hərəkətlərdə birləşmələrdə elementlərin yerinə yetirilmə ardıcıllığı sərbəst ola bilər (CR istisnadır, burada çətinlik dərəcəsinin yerinə yetirilmə ardıcıllığı göstərilmişdir).

7.4.2 CV-də elementlərin təkrarlanması (gimnastika tirində SB)

a) Digər birləşmədə elementin təkrarlanmasına görə gimnast əlavə xal almayacaqdır.
• Elementlərin təsdiqlənməsi xronoloji ardıcıllıqla həyata keçirilir.

b) Qollarda bəzi elementlər, gimnastika tirində və sərbəst hərəkətlərdə akrobatika elementləri bir birləşmədə təkrarlana bilər. Rəqs elementlərini təkrarlamaq olmaz.

c)
- Qollarda – iki dəfə Tkaçev – Tkaçev və ya 360° dönməklə 2 ştalderin yerinə yetirilməsi
- Gimnastika tiri – 360° dönməklə 2 flyak
- Sərbəst hərəkətlər – iki templi salto ilə bükülərək arxaya ikiqat saltoya keçid də daxil olmaqla vasitəli və birbaşa birləşmələr.

d) 3 və daha artıq elementin birbaşa birləşməsində, qollarda uçuş fazası olan təkrarlanan element və ya gimnastika tirində və s/h-də salto birbaşa birləşmədə olmalıdır.

Nümunələr:



D + D + D
0.10 + 0.10

D + D + D
CV 0.20 + 0.20
SB + 0.10

a) 3 və daha artıq elementin birbaşa birləşməsində, qollarda uçuş fazası olan təkrarlanan element və ya gimnastika tirində və s/h-də salto birbaşa birləşmədə olmalıdır.
CV bütün birləşmələr üçün verilir.

Qollar



D + D + **X** + D

SB + 0.40 0.10 + 0.20 + 0.10

Elementdən aşağıdakı kimi istifadə etmək olar:
- 1-ci dəfə birləşmədə 2-ci element kimi
- 2-ci dəfə 2 eyni elementin birləşməsi kimi
- 3-cü dəfə yeni birləşmədə 1-ci element kimi

Gimnastika tiri



CV cəmi + 0.20 və SB + 0.10

Saltodan aşağıdakı kimi istifadə etmək olar:
- 1-ci dəfə birləşmədə 2-ci element kimi
- 2-ci dəfə növbəti birləşmədə 1-ci element kimi
- 3-cü dəfə 2 eyni saltonun birləşməsi kimi

S/H

C + X + C

CV + 0.20 0.10 + 0.10

Salto aşağıdakı kimi hesablana bilər:

- 1-ci dəfə 2 eyni saltonun birləşməsi kimi
- 2-ci dəfə yeni birləşmədə 1-ci element kimi

8-ci Bölmə — E xalı üçün qaydalar

8.1 E xalı 10.00 *(Hərəkətlərin icrası)*

Gimnast hərəkətin icrasına, kompozisiyaya və artistizmə görə maksimal 10.0 xal ala bilər.

E xalına aşağıdakı cərimələr daxildir**:**
– hərəkətlərin icrası
– artistizm

8.2 Hərəkətin E briqadası tərəfindən qiymətləndirilməsi

E briqadasının hər bir hakimi hərəkəti fərdi qaydada qiymətləndirir.

Hər bir hərəkət səhvsiz icra ilə müqayisədə qiymətləndirilir. Səhvsiz icradan yayınmalara görə cərimə xalları tətbiq edilir.

E xalının çıxarılması: icra və artistizmdə səhvlərə görə cərimə xalları 10.0-dan çıxılır.

Maddə 8.3 – Ümumi səhvlər və cərimələr cədvəli

Səhvlər		Kiçik	Orta	Böyük	Çox böyük
		0.10	0.30	0.50	1.00 və ya daha çox
E və R briqadalarının cərimələri					
Hərəkətlərin icrasında səhvlər					
– Əllərin və ya dizlərin bükülməsi	Hər dəfə	X	X	X	
– Ayaqların və ya dizlərin aralanması	Hər dəfə	X	X Çiyinlərin eni və ya daha böyük		
– Dönməli elementlərin icra edilməsi zamanı ayaqlar çarpazlaşmışdır	Hər dəfə	X			
– Elementlərin hündürlüyü yetərli deyildir	Hər dəfə	X	X		
– Qruplaşmanın dəqiqliyi yetərli deyildir, bir saltoda bükülmüş vəziyyət	Hər dəfə	X 90˚ Dizdə/budda bucaq	X >90˚ Dizdə/budda bucaq		
– Beli açıq vəziyyəti saxlaya bilməmək (vaxtından əvvəl bükülmək)	Hər dəfə	X	X		
– Elementlərin və hərəkətlərin icra edilməsi zamanı qətiyyətsizlik	Hər dəfə	X			
– Elementə icrasız cəhd etmə	Hər dəfə		X		
– Düz istiqamətdən yayınma	Hər dəfə	X			
Elementlərdə (q/rəqs) qamət və ayaqların vəziyyəti – Bədənin vəziyyəti – Barmaqlar dartılmayıb, pəncələr boşalıb – Rəqs/akrob. elementlərində (uçuşsuz) yetərli olmayan şpaqat	 Hər dəfə Hər dəfə Hər dəfə	 X X X	 X		
– Elementə qoyulan texniki tələblər yerinə yetirilməyib *(baxın: Maddə9)*	Hər dəfə	X	X	X	
– Dəqiqlik	Hər dəfə	X			
– Alətə (qollar, gimnastika tiri) həddən artıq yaxından sıçrama			X		
Yerə enmə zamanı səhvlər (sıçramalar da daxil olmaqla bütün elementlər)	Yıxılma yoxdursa, yerə enməyə görə maksimal cərimə xalı 0.80-dən artıq ola bilməz				
– Yerə enmə zamanı ayaqların aralı olması	Hər dəfə	X			
– Əlləri əlavə yelləmələr		X			
– Tarazlığın yetərli olmaması	Hər dəfə	X	X		
– Əlavə addımlar, kiçik sıçrayış	Hər dəfə	X			
– Çox böyük addım və ya sıçrayış *(çiyin enindən böyük)*	Hər dəfə		X		
– Bədənin vəziyyətində səhvlər	Hər dəfə	X	X		
– Dərin çömələmə	Hər dəfə			X	
– Matlara və ya alətə bir əllə dayaq vermək	Hər dəfə				1.00
– Dizləri və ya çanağı üstə yıxılmaq	Hər dəfə				1.00
– Alətin üzərinə yıxılmaq	Hər dəfə				1.00
– Gimnast ilkin olaraq pəncələri üzərinə enməyib					1.00

Maddə 8.3 – Ümumi səhvlər və cərimələr cədvəli

Səhvlər		Kiçik	Orta	Böyük	Çox böyük
		0.10	0.30	0.50	1 və artıq
D briqadasının hakimləri *(D[1] – D[2])* tərəfindən					
– Birləşmələrin icrası zamanı gimnastın yıxılması	Qollar, gimnastika tiri, sərbəst hərəkətlər				CV, SB yoxdur (br.)
– Elementin sonunda pəncələrə və ya təyin edilmiş vəziyyətə enməmək	Hər dəfə				DV, CV, CR, SB yoxdur (br.)
– Elementə başlamaq üçün xalçanın hüdudlarından kənardan təkan vermək	Sərbəst hərəkətlər				DV, CV, CR yoxdur (br.)
– Gimnastın hərəkətin icrasından əvvəl/və ya sonra D briqadasına təzim etməməsi	Gim. /Alət		X		Yekun xaldan
Sığorta (kömək)	Qollar, gimnastika tiri, sərbəst hərəkətlər Hər dəfə				Yekun xaldan 1.00 DV, CV, CR, SB yoxdur (br.)
Məşqçinin xalça üzərində icazəsiz olması	Gim. /Alət			X	Yekun xaldan
D briqadası *(D[1] – D[2])* alət üzrə müşahidəçi ilə məsləhətləşdikdən sonra					
Alətlər üzrə pozuntular:					
- Körpü vəziyyəti üçün rondatın yerinə yetirilməsi zamanı tullanmanın 1-ci fazasında təhlükəsizlik matından istifadə etməmək (8.4.2)	Gim. /Alət				Tullanma hesablanmayıb “0”
- Əlavə matdan istifadə etməmək	Gim. /Alət			X	Yekun xaldan
- Yolverilməyən altlıqda körpücük	Gim. /Alət			X	
- Əlavə matlardan yolverilməyən istifadə	Gim. /Alət			X	
- Əlavə matın hərəkət zamanı və ya tirin o biri tərəfinə sürüşməsi	Gim. /Alət			X	
Yarışların Hakimlər Heyətinin Sədri tərəfindən D briqadasının Yarışların Hakimlər Heyətinə məlumatı üzrə Yekun xaldan					
- Alətin ayarlarının icazəsiz dəyişdirilməsi				X	Yekun xaldan
- Gimnastika körpücüyünə yayların əlavə edilməsi, yerlərinin dəyişdirilməsi və çıxarılması				X	Yekun xaldan
- Maqnezium tozundan düzgün istifadə etməmək				X	Yekun xaldan
Yarışların Hakimlər Briqadasının Sədri tərəfindən D briqadasının Yarışların Hakimlər Briqadasına məlumatı üzrə Yekun xaldan					
Gimnastın davranışı:					
- Düzgün olmayan və qeyri-estetik astarlar -	Gim. /Alət		X		
- Geyimdə milli nişanın olmaması və ya düzgün yerdə olmaması	Gim. /Alət		X	Təsnifat yarışlarında, çoxnövçülük üzrə final yarışlarında, komandaların final yarışlarında bir dəfə	

– Start nömrəsinin olmaması	Gim. /Alət		X	yarışların mərhələsində müşahidə edildiyi alətdə. Alətlər üzrə finalda – alət üzrə xaldan	
– Düzgün olmayan forma – triko, bəzək əşyaları, bintlərin rəngi	Gim. /Alət		X		
– Düzgün olmayan reklam	Gim. /Alət		X	Məsul şəxsin müraciəti üzrə alət üzrə xaldan	
- İdmançıya layiq olmayan davranış	Gim. /Alət		X	Yekun xaldan	
- İcazəsiz xalça üzərində olmaq	Gim. /Alət		X	Yekun xaldan	
- Gimnastın hərəkət bitdikdən sonra xalça üzərinə qayıtması	Gim. /Alət		X	Yekun xaldan	
- Yarışlar zamanı hakimlərlə müzakirələr	Gim. /Alət		X	Yekun xaldan	
- Təyin olunmuş ardıcıllıqla çıxış etməmək	Komanda		Təsnifat və komandaların final yarışlarında komandanın yekun xalından 1.00		
- Müxtəlif trikolar (eyni komandanın gimnastları)	Komanda		Təsnifat və komandaların final yarışlarında komandanın yekun xalından 1.00		
- Gimnastın yarış zalında olmaması səbəbindən yarışları sona çatdıra bilməməsi			Yarışlardan uzaqlaşdırılır		
- Yarışların səbəbsiz dayandırılması və ya ləngidilməsi			Yarışlardan uzaqlaşdırılır		
Xronometristin D briqadasına yazılı məlumatı					
- İsinmə hərəkətləri üçün verilmiş müddətin aşılması (xəbərdarlıqdan sonra) • Gimnast tərəfindən	Komanda Gim. /Alət		X X		Yekun xaldan
- Yaşıl işarə qoşulduqdan 30 san. sonra gimnastın hərəkətə başlamaması	Gim. /Alət		X		
- 60 san. sonra hərəkətin başlanmaması	Gim. /Alət		Gimnastın çıxış etməsinə icazə verilmir		
- Müddətin aşılması (gimnastika tiri, sərbəst hərəkətlər)	Gim. /Alət	X			
- Hərəkətin qırmızı işıqda başlanması	Gim. /Alət				“0”
Müxtəlik hündürlüklü qollar və gimnastika tiri - İcazə verilən yıxılma müddətinin aşılması - İcazə verilən yıxılma müddətinin aşılması (60 saniyədən artıq)	 Gim. /Alət Gim. /Alət		 X		 Hərəkət bitmişdir

Yarışların Hakimlər Briqadasının Sədri tərəfindən (Yarışların Hakimlər Briqadasının üzvləri ilə məsləhətləşdikdən sonra)	BGF rəsmi yarışları və qeydə alınmış yarışları üçün vərəqə sistemi
Məşqçinin gimnastın/komandanın nəticəsinə/çıxışına birbaşa təsir <u>etməyən</u> davranışı	
İdmançıya layiq olmayan davranış *(*yarışların bütün mərhələləri ərzində*)*	1-ci dəfə – məşqçiyə sarı vərəqə *(*xəbərdarlıq*)* 2-ci dəfə – qırmızı vərəqə və məşqçi yarışlardan uzaqlaşdırılır
Digər yolverilməz, intizamsız və ya təhqiramiz davranış *(*yarışın bütün mərhələləri ərzində)	Dərhal qırmızı vərəqə və məşqçi yarışlardan uzaqlaşdırılır
Məşqçinin gimnastın/komandanın nəticəsinə/çıxışına birbaşa təsir <u>edən</u> davranışı	
İdmançıya layiq olmayan davranış *(*yarışların bütün mərhələləri ərzində*)* Məsələn, əsaslı səbəb olmadan yarışların ləngidilməsi və ya dayandırılması, etiraz şikayətinə dair D1 hakiminə müraciət istisna olmaqla, yarışlar zamanı digər hakimlərlə müzakirələr, hərəkət zamanı gimnasta müraciət, işarələr və s.)	1-ci dəfə – 0.50 *(*gim./komanda alətdə*)* və sarı vərəqə *(*xəbərdarlıq*)* − əgər məşqçi hakimlərlə söhbət edirsə 1-ci dəfə – 1.00 *(*gim./komanda alətdə*)* və sarı vərəqə *(*xəbərdarlıq*)* − əgər məşqçi hakimlərlə aqressiv danışarsa 2-ci dəfə – 1.00 (gim./komanda alətdə) qırmızı vərəqə və məşqçi yarış zonasından uzaqlaşdırlır.
Digər yolverilməz, intizamsız və ya təhqiramiz davranış *(*yarışın bütün mərhələləri ərzində) Məsələn, yarışların qaydalarına uyğun olmadan məşqçinin xalça kənarında olması və s.	**1.00** *(*gim./komanda alətdə), qırmızı vərəqə və məşqçi yarış zonasından uzaqlaşdırlır

Qeyd*: əgər komandanın məşqçilərindən biri yarış zonasından uzaqlaşdırlmışdırsa, onun digər məşqçi ilə əvəz edilməsi mümkündür, lakin yarışların bütün dövrü ərzində buna yalnız bir dəfə icazə verilir.

1-ci pozuntu = sarı vərəqə
2-ci pozuntu = qırmızı vərəqə, bu vərəqəni aldıqdan sonra məşqçi yarışların sonunadək yarış zonasına buraxılmır.

*Əgər yarışlarda nümayəndə heyətindən yalnız bir məşqçi iştirak edirsə, o, yarışlarda qala bilər, lakin bu məşqçi növbəti Dünya Çempionatında və Olimpiya Oyunlarında akkreditasiya olunmayacaqdır.

Maddə 9 — Elementlərin icra texnikası

Çətinlik dərəcəsi (DV) almaq üçün, elementlər texniki tələblərə uyğun olaraq yerinə yetirilməlidirlər.

Elementin bitmə bucaqlarını ehtiva edən bütün qaydalar nümunə üçündür, onlar elementin qiymətləndirilməsi üçün əsas qismində çıxış edirlər.

9.1 BÜTÜN ALƏTLƏR

Bədənin vəziyyətinə görə tələblər

qruplaşmaya

- Salto və rəqs elementlərində bud-çanaq və diz oynaqlarında bucaq 90°-dən kiçikdir.

Bükülmə vəziyyəti

- Salto və rəqs elementlərində bud-çanaq oynağında bucaq 90°-dən kiçikdir.

Beli açıq vəziyyət (bədənin bütün hissələri düzlənmiş vəziyyətdə)

- Bədənin bütün hissələri bir müstəvidədir.

9.1.1 Elementlərin təsdiqlənməsi

a) Beli açıq vəziyyət

Əksər saltolarda beli açıq vəziyyət saxlanmalıdır:

- Bir saltoda
- Sərbəst hərəkətlər və müxtəlif hündürlüklü qollarda hərəkətlərdə ikiqat salto (sıçrama)
- Tullanma (salto ilə)

b) Əgər beli açıq vəziyyət **göstərilməmişdirsə,** aşağıdakı elementlərdə bükülmüş vəziyyət verilir:

- Dönməsiz elementlər
- Dönməsiz tullanmalar

Dönməsiz bir və ya ikiqat saltolarda bədən vəziyyətinin hesablanması

Bükülərək salto qruplaşmaya çevrilir



D briqadası

Əgər diz oynaqlarında bucaq 135°-dən kiçikdirsə – Qruplaşma kimi hesablanır.

Qruplaşma beli açıq vəziyyətə çevrilir



D briqadası

Bud-çanaq oynağında bucaq - 180°
Beli açıq vəziyyət kimi hesablanır.

Beli açıq vəziyyət bükülməyə çevrilir



D briqadası

Bud-çanaq oynağında bucaq –bükülmə kimi hesablanır.
Azacıq yığılmış vəziyyətə (sinədə) və azacıq açılmaya icazə verilir.

9.1.2 Dönməklə bir saltodan sonra yerə enmələr

a) Dönməli elementlər dəqiqliklə sona çatdırılmalıdır, əgər fırlanma bitməmişdirsə, Elementlər Cədvəlindən **digər** bir element verilir*.

– Müxtəlik hündürlüklü qollarda və gimnastika tirində sıçramalarda;
– gimnastika tirində hərəkətlərin və sərbəst hərəkətlərin yerinə yetirilməsi zamanı
– tullanmalarda – bütün yerə enmələr.

Qeyd: Öndəki ayağın vəziyyəti elementin çətinlik dərəcəsini müəyyənləşdirir.

b) Tam dönmədikdə:

3/1 dönmə 2½ dönməyə çevrilir
2½ dönmə 2/1 dönməyə çevrilir
2/1 dönmə 1½ dönməyə çevrilir
1½ dönmə 1/1 dönməyə çevrilir

*Sərbəst hərəkətlər: Gimnast birbaşa birləşmədə 2 və daha artıq element yerinə yetirirsə və birinci elementdə dönmə sona çatdırılmamışdırsa (lakin gimnast növbəti elementi yerinə yetirirsə), elementin çətinlik dərəcəsi aşağı SALINMIR.

9.1.3 Yerə enmə zamanı yıxılmalar

a) Əvvəlcə pəncələr üzərinə endikdə – elementin çətinlik dərəcəsi təsdiq edilir.
b) Pəncələr üzərinə enmədikdə – elementin çətinlik dərəcəsi təsdiqlənmir.

9.2 Gimnastika tiri və sərbəst hərəkətlər

Rəqs elementlərində dönmənin hesablanması

9.2.1 Bir ayaq üstündə dönmələr zamanı çətinlik dərəcəsinin artması:

- gimnastika tirində180°
- sərbəst hərəkətlərdə 360°
- Dönmə tam sona çatdırılmalıdır, əks halda başqa element hesablanır.
- Budların və çiyinlərin vəziyyəti elementlərin qiymətləndirilməsi üçün həlledici rol oynaylr.

Dönmələrin icrasına tələblər:

- Barmaq uclarında yerinə yetirilməlidir.
- Bütün dönmə ərzində bədən düzgün təsbit edilmiş vəziyyətdə olmalıdır.
- Əgər element düz və ya bükülmüş ayaqla yerinə yetirilmişdirsə, elementin çətinlik dərəcəsi dəyişmir.
- Bir ayaq üstə dönmələrdə, qaldırılmış ayaq göstərilmiş vəziyyətdə saxlanmalı olduqda, bu vəziyyət bütün dönmə ərzində saxlanmalıdır.
- Əgər qaldırılmış ayaq düzgün vəziyyətdə deyildirsə, Elementlər Cədvəlindən digər bir element verilir.

a) Tam dönməmək:
Nümunə:

- Gimnastika tiri: çevrilərək olur.
- Sərbəst hərəkətlər: çevrilərək olur.

9.2.2 Dönmə ilə bir və iki ayaqla tullanmaların, sıçrayışların hesablanması zamanı aşağıdakı artırmalar tətbiq edilir:

- Gimnastika tirində və sərbəst hərəkətlərdə 180 (şpaqat, ayaqlar aralı və halqa vəziyyəti)
- s/h-də 360

Dönməli tullanmaların icrasında **müxtəlif texnikaya** icazə verilir – ayaqlar bükülmüş, qruplaşaraq, dönmənin əvvəlində, ortasında və ya sonunda ayaqlar aralı (xüsusi tələbləri olan elementlər istisnadır).

- **30° tam dönməmək:** Elementlər Cədvəlindən **digər** element verilir.
  Budların və çiyinlərin vəziyyəti həlledicidir.
  Nümunələr:
  - Gimnastika tiri/Sərbəst hərəkətlər çevrilərək *və ya* *olur (əgər ayaqlar aralı vəziyyət göstərilmişdirsə).*
  - S/H çevrilərək olur.
  - S/H çevrilərək *və ya* *olur (əgər ayaqlar aralı vəziyyət göstərilmişdirsə).*
  - S/H çevrilərək olur.
  - Gimnastika tiri çevrilərək olur.
  - *¼ dönmənin əlavə edilməsi elementi dəyişmir.*

Təriflər:

Bir ayaqla tullanmalar: 1 ayaqla təkan vermək və digər ayaq və ya 2 ayaq üstünə enmək.
Sıçrayışlar: 1 ayaqla təkan vermək və həmin ayaq və ya 2 ayaq üstünə enmək.
Tullanmalar: 2 ayaqla təkan vermək və 1 və ya 2 ayaq üstünə enmək.

Qeyd: bir və iki ayaqla tullanmalar zamanı 180° şpaqat tələb olunur.

9.2.3 Şpaqata tələblər

Bir və iki ayaqla tullanmalarda, sıçrayışlarda və dönmələrdə ayaqları kifayət qədər açmamağa görə cərimələr tətbiq edilir.





0° - 20° cərimə 0.10
20° - 45°cərimə 0.30
45° Elementlər Cədvəlindən digər bir element verilir və ya çətinlik dərəcəsi verilmir.

9.3 Rəqs elementlərinin icrasına tələblər

Tarazlıq vəziyyətləri (4.102)

Tələblər:
- 180˚ şpaqat

D briqadası
< 180˚ şpaqat – DV yoxdur

Göstərilmiş vəziyyətdə ayaqla dönmələrin nümunələri:

Tələblər:
Sərbəst ayaq bütün dönmə ərzində irəlidə və ya arxada üfüqi səviyyədə olmalıdır.

D briqadası
Sərbəst ayaq üfüqi səviyyədən aşağıdadır
– Elementlər Cədvəlindən digər element

Qruplaşaraq dönmə ilə/ dönməsiz tullanma

Tələblər:
Bud-çanaq oynağında bucaq - 90°-dən kiçik
Dizlər üfüqi səviyyədən yuxarıda

D briqadası
Bud-çanaq və diz oynaqlarında bucaq 135°
– DV yoxdur və ya digər element

E-Panel
- Dizlər üfüqi səviyyədə – 0.10
- Dizlər üfüqi səviyyədən aşağıda – 0.30

Dönmə ilə /dönməsiz tapança vəziyyəti

Tələblər:
- Bud-çanaq oynağında bucaq-90°-dən az
Düz ayaq üfüqi səviyyədən yuxarıda

D briqadası
-çanaq və diz oynağında bucaq> 135°
– DV yoxdur və ya digər element

E-Panel
- Düz ayaq üfüqi səviyyədə – 0.10
- Düz ayaq üfüqi səviyyədən aşağıda – 0.30

Ayaqları növbələşdirməklə dönmə ilə/dönməsiz tullanma

Tələblər:
- Ayaqları növbələşdirmək
- Dizlər üfüqi səviyyədən yuxarıda
- Dizin ən aşağı vəziyyətini qiymətləndirin

D briqadası
- Dizlərdə/bud-çanaq oynağında bucaq > 135°

– DV yoxdur və ya digər DV
- Ayaqları kifayət qədər növbələşdirməmək – qruplaşaraq tullanma

E briqadası
Bir/iki ayaq üfüqi səviyyədə – 0.10
Bir/iki ayaq üfüqi səviyyədən aşağıda – 0.30

Dönmə ilə/dönməsiz ayaqlar aralı şpaqata tullanma

Tələblər:
Hər 2 ayaq üfüqi səv-dən yuxarıda

D briqadası
bud-çanaq oyn. bucaq > 135° – DV yoxdur
və ya digər DV

E briqadası
Ayaqların düzgün olmayan vəziyyəti – 0.10
Ayaqlar üfüqi səviyyədə – 0.10

Ayaqlar üfüqi səv-dən aşağı – 0.30

Halqa vəz-nə tullanma

Tələblər:
Belin yuxarı hissəsində əyilmə,

baş arxaya əyilib

180° diaqonal üzrə şpaqat
Pəncə başın təpəsi səv-də

D briqadası
Bel əyilməyib və/və ya baş arxaya əyilməyib

– addımla tullanma və ya ayaqları növb-lə addımla tullanma hesablamaq
Şpaqat yoxdur DV yoxdur

E briqadası
Bel yetərli əyilməyib – 0.10
Arxa ayaq baş səv-də – 0.10
Arxa ayaq çiyin səv-də – 0.30

2 ayaqla halqa vəz-nə tullanma

Tələblər: Beldə əyilmə və baş arxaya əyilib, pəncələr başın təpəsi səviyyəsində. Bud-çanaq oynağı açılıb.

D briqadası
Bel əyilməyib və baş arxaya əyilməyib – DV yoxdur
Pəncələr çiyin səv-dən aşağıda − DV yoxdur

E briqadası
Yetərli əyilməmək − 0.10
Pəncələr baş səv-də və aşağı − 0.10
Bud-çanaq oyn-da yetərsiz bucaq − 0.10
Ayaqları kifayət qədər bükməmək (≤90° − 0.10

Yanq bo

Tələblər:
- Bel əyilib, baş arxaya əyilib
Ön ayağın minimal vəziiyətdə 180° dərəcədən artıq şpaqat açması, öndəki ayaq ən azı üfüqi səviyyədə

D briqadası
Bel əyilməyib və baş arxaya əyilməyib
– Şpaqata tullanma və ya sison
Öndəki ayaq üfüqi səv-dən aşağıda – halqa vəziyyətinə tullanma

E briqadası
Beldə yetərsiz əyilmə – 0.10
Ön ayağın minimal vəziiyətdə 180° dərəcədən artıq şpaqat açmaması, lakin hər iki ayaq üfüqi səviyyədədi – 0.10

Ayaqları növbələşdirməklə şpaqata tullanma

Tələblər:
Birinci ayaqla yellənmə min. 45°
Birinci yellənmədə ayaq düz vəziyyətdə

E briqadası
Birinci ayaqla yellənmə < 45° – 0.10
Birinci ayaq bükülüb – 0.10/0.30

Ayaqları növbələşdirərək dönməklə şpaqata tullanmaq ( )



Tələblər:

Sağ ayaqla yellənmə min. 45˚

Birinci yellənmədə düz ayaq uzununa şpaqat göstərmək

D briqadası

Kifayət qədər dönməmək çevrilərək və ya olur.

Kifayət qədər dönməmək çevrilərək və ya olur.

E briqadası

Birinci ayaqla yellənmə < 45˚ – 0.10

Birinci ayaq bükülüb – 0.10/0.30



Halqa vəz-nə tullanmaq/ayaqları növbələşdirməklə halqa vəz-nə tullanmaq (dönmə ilə/dönməsiz)

Tələblər:

Belin yuxarı hissəsində əyilmə, baş arxaya əyilib

180° şpaqat

Öndəki ayaq üfüqi səviyyədə və arxadakı ayaq başın təpəsi səviyyəsində

Dönmə halqanın göstərilən vəziyyətindən sonra icra edilməldir.

D briqadası

Belin əyilməsi yoxdur və baş arxaya əyilməyib – addımla tullanmaq/ayaqları növbələşdirməklə addımla şpaqata tullanmaq

Arxadakı ayaq çiyindən aşağıda- addımla tullanma/ayaqları növb. tullanma/şpaqata tul.

Dönməyə düzgün başlamamaq – addımla tullanma/ayaqları növb. tullanma/dönməklə şpaqata tullanma

E briqadası

Beli kifayət qədər əyməmək – 0.10

Öndəki ayaq üfüqi səv-dən aşağıda(təxminən 45˚) – 0.10

1 oktyabr 2017-ci ildən etibarən

Arxadakı ayaq baş səviyyəsində – 0.10

Arxadakı ayaq çiyin səviyyəsində - 0.30

Bədənin vəziyyətinə görə maksimal cərimələr 0.50 xaldan artıq ola bilməz.

Bədən vəziyyətinə görə cərimələr aşağıdakıları ehtiva edir:

Kifayət qədər açılmamış şpaqat

Bükülmüş ayaqlar

Dartılmamış barmaq ucları

Ayaqların aralanması

Bədənin vəziyyətinə görə spesifik cərimələr (Maddə 9.3-də göstərilir)

0.1 – kiçik səhv

0.3 – orta səhv

Qeyd:

Bir kiçik səhvə 0.1 cərimə xalı verilir.

Bir neçə kiçik səhv və bir orta səhvə 0.3 cərimə xalı verilir.

Böyük səhvlərə görə 0.5 cərimə xalı verilir.

(Maddə 8.3-ə uyğun olaraq)

9.4 Müxtəlif Hündürlüklü Qollar

9.4.1 Duruş vəziyyətinə arxaya yellənmə

Bədənin bütün hissələri şaquli səviyyədə düz dayandığı halda duruş yerinə yetirilmiş hesab edilir.



D briqadası:

Əgər duruş yerinə yetirilibsə

şaquli səv-dən 10° həddində -DV hesablanır

>10° – DV yoxdur

Ebriqadası

> 30° – 45° - 0.10

> 45° - 0.30

9.4.2 Dönməsiz fırlanmalar və YQ-dan AQ-da duruş vəziyyətinə uçuşla elementlər



D briqadası

Əgər element sona çatdırılıbsa:

şaquli səviyyəyədək 10- DV yoxdur və ya digər DV

□ şaquli səviyyədən sonra > 10° - 1 DV aşağı

Ebriqadası

□ > 10° – 30° – 0.10

□ > 30° - 45° – 0.30

□ > 45° – 0.50



9.4.3 Yellənmələr – dönməli elementlər, onlar:

duruş vəziyyətinə çatmırlar

şaquli səviyyədən keçmirlər və

əks istiqamətə dönmədən sonra hərəkəti davam etdirirlər.





D briqadası

Əgər element sona çatdırılıbsa:

şaquli səv-dən 10° həddində -DV hesablanır (bax. 9.4.4)

şaquli səv-dək > 10°– dönməklə duruş vəz-nə fırlanmaya nisbətən 1 DV aşağı verilir.

E briqadası

> 10° – 30° – 0.10

> 30° – 45° – 0.30

□ > 45° – 0.50

½ (180˚) dönməklə yellənmə elementləri:

– DV almaq üçün bədənin bütün hissələri üfüqi səviyyədə olmalıdır, əgər bu yerinə yetirilmirsə, DV verilmir (boş yellənmə).

9.4.4 Duruşda dönmələrlə fırlanmalar və duruşda dönmələrlə geriyə yellənmələr



D briqadası

Əgər duruş yerinə yetirilibsə:

10°həddində (istənilən tərəfdən) və dönmə yerinə yetirilibsə - DV hesablanır



E briqadası

> 10° – 30° – 0.10
> 30° – 45° – 0.30
□ > 45° – 0.50

Əgər eyni element yellənmə və dönməklə fırlanma kimi icra edilirsə, bu element yalnız bir dəfə xronoloji ardıcıllıqla hesaba alınır.

9.4.5 ELEMENTLƏRƏ TƏLƏBLƏR



"Adler" ***(5.501)***



D briqadası
yerinə yetirilib:

□ şaquli səviyyədən 30°həddində DV verilir
□ >30° – 1 DV az verilir

E briqadası

□ > 30° - 45° – 0.10
□ > 45° – 0.30

"Pak saltosu" **(3.404)**



E briqadası

□ > 30° – 45° – 0.10
□ > 45° – 0.30

Elementlərin amplitudasına görə cərimələrdən başqa bədənin düzgün olmayan vəziyyətlərinə görə də cərimələr tətbiq edilməlidir.

Reach the Maximum

SPIETH
Gymnastics

III Hissə

ALƏTLƏR

10-13-cü MADDƏLƏR

III HİSSƏ ALƏTLƏR

MADDƏ 10 — Dayaqlı tullanma

10.1 Ümumi

Yarış gününə olan xüsusi tələblərdən asılı olaraq, gimnast Tullanmalar cədvəlindən bir və ya iki tullanma yerinə yetirməlidir.

– Qaçışın maksimal uzunluğu 25 metrdir, masanın ön tərəfindən yolun sonunda dirəyin ön səthinədək ölçülür.

– Dayaqlı tullanma qaçaraq və körpücüyün üstündən iki ayaqla təkan verərək yerinə yetirilir.
  - üzü gimnastika atına və ya
  - arxası gimnastika atına doğru

– Yan tərəfi üstə yerə enməklə tullanmalara icazə verilmir.

– Bütün dayaqlı tullanmalar tullanma masasından iki əllə təkan verməklə yerinə yetirilməlidir.

– Gimnast uçuşun 1-ci fazasında rondat flyak vəziyyətindən tullanmalar üçün təşkilatçıların təqdim etdiyi "təhlükəsizlik matından" istifadə etməlidir.

– Əllər üçün matdan yalnız 1,4 və 5-ci qruplardan Yurçenko tipli tullanmalar üçün istifadə etməyə icazə verilir .

– Hər bir tullanmanın nömrəsi vardır.

– Dayaqlı tullanmanı yerinə yetirməzdən əvvəl planlaşdırılan tullanmanın nömrəsi göstərilməlidir (əllə, yaxud elektron tabloda).

– Dayaqlı tullanmada yaşıl işıq qoşulduqdan və ya D1 hakimi işarə verdikdən sonra, gimnast birinci tullanmanı yerinə yetirməli və yenidən qaçış üçün yolun sonuna qayıtmalı və ikinci tullanmanın nömrəsini göstərməlidir.

– Körpüdən təkan vermədən başlayaraq, tullanmanın aşağıdakı fazaları qiymətləndirilir:
  - uçuşun 1-ci fazası
  - təkan vermə fazası
  - uçuşun 2-ci fazası və yerə enmə.

10.2 Cəhdlər

Dayaqlı tullanma icra edilmədən edilən cəhdlərə görə (əgər gimnast körpücüyə və ya alətə toxunmayıbsa) 1.00 xal çıxılmaqla, aşağıdakı cəhdlərə icazə verilir.

- 1 tullanma tələb olunduqda, cərimə xalı çıxılmaqla ikinci cəhdə icazə verilir.
- Üçüncü cəhdə icazə verilmir.
- 2 tullanma tələb olunduqda cərimə xalı çıxılmaqla üçüncü cəhdə icazə verilir.
- Dördüncü cəhdə icazə verilmir.

D briqadası yerinə yetirilən tullanmanın çətinlik xalından cərimə xalları çıxır.

10.3 Tullanmaların qrupları

Tullanmalar aşağıdakı qruplarda təsnif edilir:

1-ci qrup	Salto icra edilmədən (irəliyə aşmaq, Yamasita, rondatdan) uçuşun 1-ci və/və ya 2-ci fazasında uzununa ox ətrafında fırlanmaqla/fırlanmadan
2-ci qrup	Uçuşun 1-ci fazasında 1/1 (360°) dönməklə/dönmədən irəliyə aşmalar – uçuşun 2-ci fazasında uzununa ox ətrafında fırlanmaqla/fırlanmadan irəliyə və ya arxaya salto
3-cü qrup	Uçuşun 1-ci fazasında ¼ - ½ (90° - 180°) dönməklə irəliyə aşmalar (Tsukaxara) - uçuşun 2-ci fazasında uzununa ox ətrafında fırlanmaqla/fırlanmadan arxaya salto
4-cü qrup	Rondat flyakdan (Yurçenko) uçuşun 1-ci fazasında uzununa ox ətrafında 3/4 (270°) dönməklə/dönmədən - uçuşun 2-ci fazasında uzununa ox ətrafında fırlanmaqla/fırlanmadan arxaya salto
5-ci qrup	Rondat flyakdan uçuşun 1-ci fazasında ½ (180°) dönməklə – uçuşun 2-ci fazasında uzununa ox ətrafında fırlanmaqla/fırlanmadan irəliyə və ya arxaya salto

10.4 Tələblər

– Dayaqlı tullanma yerinə yetirilməzdən əvvəl **planlaşdırılan** tullanmanın nömrəsi göstərilməlidir (əllə, yaxud elektron tabloda).

– **Təsnifat yarışlarında, komandaların final yarışlarında və çoxnövçülük yarışlarında**: **bir** tullanma yerinə yetirmək tələb olunur.
  - Təsnifat yarışlarında, 1-ci tullanmanın xalı **komanda nəticəsinin və / və ya çoxnövçülük üzrə nəticənin hesabına yazılır**.
  - **Final yarışlarında** iştirak etmək istəyən gimnast tullanma üzrə final yarışlarının qaydalarına uyğun olaraq 2 tullanma yerinə yetirməlidir (növbəti bölməyə baxın).

Dayaqlı tullanma üzrə final yarışları

- Gimnat iki tullanma yerinə yetirməlidir. Yekun xal orta xal olacaqdır.
- İki tullanma **müxtəlif** qruplardan olmalıdır.
- Onların 2-ci uçuş fazaları müxtəlif olmalıdır.

Nümunə

1. Əgər 1-ci tullanma 4-cü qrupdandırsa:
Beli açıq vəziyyətdə 2½ (900°) dönməklə rondat flyak salto, o halda 2-ci tullanmada bunları yerinə yetirmək olar:

Beli açıq 2/1 (720°)dönməklə Tsukaxara və ya İrəliyə aşmaq – uçuşun 2-ci fazasında 1/1 dönmə

2. Əgər 1-ci tullanma 2-ci qrupdandırsa:
İrəliyə aşmaq irəliyə salto, o halda 2-ci tullanmada bunları yerinə yetirmək olar:

Beli açıq rondat flyak salto və ya

Bükülərək Tsukaxara

Qeyd: İrəliyə aşmaq irəliyə ikiqat salto:
Əgər gimnastın eyni zamanda həm ayaqlar, həm də bədənin digər hissəsi üzərinə enməsi səbəbindən 2-ci salto sona çatdırılmayıbsa, irəliyə aşmaq irəliyə salto hesablanır.

10.4.1 Məhdudlaşdırıcı xətlər (dəhliz)

Yerə enmə zamanı düz istiqamətdən yayınmaya görə cərimələrin verilməsi üçün yerə enmə matının mərkəzində işarələnmiş dəhliz (xətlər) əsas götürülür. Gimnast bu zonada yerə enməli və tullanmanı bu zonada dayanıqlı vəziyyətdə bitirməlidir.

D1 hakimi (xətt ahkimindən yazılı məlumatla) düz istiqamətdən yayınmalara görə aşağıdakı cərimə xallarını çıxır:

– Dəhlizin hüdud xəttindən kənara bir ayaqla/əllə (ayağın/əlin bir hissəsi ilə) yerə enmək və ya addım atmaq	− 0.10
– Dəhlizin hüdud xəttindən kənara iki ayaqla/əllə (ayağın/əlin bir hissəsi ilə) yerə enmək və ya addım atmaq	− 0.30

10.4.2 Spesifik cərimələr (D briqadası)

Yerinə yetirilmiş tullanmanın yekun xalından:

= 25m-dən uzun qaçış	− 0.5
– Tullanma yerinə yetirilmədən ona cəhd	− 1.00
= Tullanma masasına yalnız bir əllə toxunmaq (cərimə xalı yekun xaldan çıxılır)	− 2.00

– Təsnifat yarışlarında və alətlər üzrə finalda*:*

- Bir tullanma “0” aldıqda *(10.4.3)*

Xal:
Yerinə yetirilmiş tullanmanın xalı 2-yə bölünür = Yekun xal (YX)

- İki tullanma müxtəlif qruplardan olmadıqda və ya onların 2-ci uçuş fazaları müxtəlif olmadıqda

Xal:
[(1-ci tullanmanın YX) + (2-ci tullanmanın YX, çıxılsın 2.00**)]**/2 = YX

10.4.3 Aşağıdakı hallarda tullanmalar etibarsız hesab edilir (0.00 xal):

- Tullanma masasına toxunmadan tullanmanın yerinə yetirilməsi
- Uçuşun 1-ci fazasında rondat flyakdan tullanmalar üçün təhlükəsizlik matından düzgün istifadə etmədən tullanmanın yerinə yetirilməsi
- Kömək (gimnastın toxunması) .
- Gimnastın pəncələri üzərinə enməməsi
- Dayaqlı tullanma o qədər pis icra edilmişdir ki, onu müəyyənləşdirmək mümkün deyildir və ya gimnast masadan ayaqları ilə təkan vermişdir.
- Yolverilməz tullanmanın yerinə yetirilməsi (ayaqlar aralı, körpücük qarşısında yolverilməz element, bilərəkdən yanı üstə yerə enmək).
- Təsnifat yarışlarında və ya finalda birinci tullanma ikinci tullanma zamanı təkrarlanır.

Qeyd: "0" xalı D briqadası verir, E briqadasının qiymətləndirməsinə ehtiyac yoxdur.

D briqadası və alət üzrə müşahidəçi etibarsız hesab edilən (0 xal alır) və ya bir ələ dayaqla yerinə yetirilən bütün tullanmaların videoyazısına baxış keçirir.

10. 5 Xalın verilməsi

D briqadası: tullanmanın çətinlik dərəcəsini daxil edir və yerinə yetirilmiş tullanmanın simvolunu tabloda E briqadasına göstərir (əgər o, göstərilmiş tullanmadan fərqlənirsə).
1-ci tullanmanın xalı gimnast 2-ci tullanmanı yerinə yetirənədək göstərilməlidir.

Tullanmanın icrasına görə cərimə xalları *(Maddə 8)* növbəti cədvəldəki cərimələrə əlavə olaraq çıxılırlar.

10.6 Tullanmanın icrasına görə xüsusi cərimələr (E briqadası)

Səhvlər	**0.10**	**0.30**	**0.50**
Uçuşun Birinci Fazası			
– Uçuş fazasında uzununa ox boyunca dönmənin çatışmayan dərəcələrinə görə:			
• ½ (180˚) dönməklə 1 –ci qrup	£ 45°	£*90*°	
• ¾ (270°) dönməklə 4 –cü qrup	£ 45		
1/1 (360°) dönməklə 1-ci və ya 2-ci qrup	£ 45°	£*90*°	*>90*°
– Pis icra texnikası			
• Bud-çanaq oynağında bucaq	X	X	
• Əyilmə	X	X	
• Bükülmüş dizlər	X	X	X
• Aralanmış ayaqlar və dizlər	X	X	
Təkan vermə fazası			
– Pis icra texnikası			
1, 2 və 5-ci qruplardan irəliyə icra edilən tullanmalarda əllərin növbəli qoyulması (uzununa ox boyunca dönməklə beli açıq vəziyyətdə irəliyə salto istisna olmaqla)	X	X	
- Bükülmüş əllər	X	X	X
• Çiyinlərdə bucaq	X	X	
Şaquli vəziyyətdən keçməmək	X		
Uzununa ox boyunca dönməyə çox erkən başlanıb *(masada)*	X	X	
Uçuşun ikinci fazası –			
Həddən artıq kurbet	X	X	
- Hündürlük	X	X	X
Uzununa ox boyunca dönmələrin dəqiqliyi *(Kuervo da daxildir)*	X		
- Bədənin vəziyyəti			
Qruplaşaraq və ya bükülərək saltoda qeyri-dəqiq vəziyyət	X	X	

– Qruplaşaraq və ya bükülərək dönməklə saltoda qeyri-dəqiq vəziyyət	X			
– Beli açıq vəziyyətdə saltoda bədənin vəziyyəti	X			
• Bədənin düzgün vəziyyətini saxlaya bilməmək (erkən bükülmə)	X	X		
• Yetərsiz və/və ya gec açılma (qruplaşaraq və ya bükülərək tullanmalar)	X	X		
• Bükülmüş dizlər	X	X	X	
- Aralı ayaqlar və ya dizlər	X	X		
–Saltoda sonadək fırlanmamaq				
– Yıxılmadan	X			
– Yıxılma ilə		X		
––Uzunluğun (məsafənin) yetərli olmaması	X	X		
–Düz istiqamətdən yayınma	X			
– Dinamika	X	X		
-Yerə enməyə görə cərimələr – maddə 8				

11-ci Bölmə — Müxtəlif hündürlüklü qollar

11.1 Ümumi

Hərəkətin hakimlər tərəfindən qiymətləndirilməsi körpücükdən və ya matdan təkanvermədən başlayır. Körpünün altına əlavə altlıq (məsələn, əlavə taxta) qoyulmasına icazə **verilmir**.

a) Alətə sıçrayış

- Əgər gimnast birinci cəhd zamanı körpüyə, alətə toxunubsa və ya alətin altından qaçıbsa:
  - Cərimə -1.0
  - Gimnast hərəkətə başlamalıdır.
  - Alətə sıçrayışa görə heç bir DV verilmir.

- Əgər gimnast birinci cəhd zamanı körpücüyə, alətə <u>toxunmayıbsa</u> və ya alətin altından qaçmayıbsa hoppanma üçün ikinci qaçışa icazə verilir (cərimə xalı ilə).
  - Cərimə -1.00

- Üçüncü cəhdə icazə verilmir.

Alətə sıçrayışı yerinə yetirmək üçün gimnast qollar altından keçməməli/qaçmamalıdır (bax. 2.4)

b) Yıxılma vaxtı

Alətdən yıxılma zamanı 30 saniyəlik fasiləyə icazə verilir, bundan sonra gimnast hərəkəti davam etdirməlidir.

Əgər gimnast yıxılma müddətini aşırsa və daha sonra hərəkəti davam etdirirsə, 0.3 xallıq neytral cərimə tətbiq edilir.

– Gimnast yıxıldıqdan sonra ayağa qalxan andan vaxt qeydə alınır.
– Yıxılma müddəti elektron tabloda saniyələrlə göstərilir.
– Xəbərdarlıq işarəsi (qonq) verilir:
  - 10 saniyə sonra
  - 20 saniyə sonra və
  - 30 saniyə sonra – yıxılma müddəti bitir.
– Gimnast hərəkəti davam etdirmək üçün pəncələrini matdan ayırdıqda fasilə bitir.
– Yıxıldıqdan sonra gimnast hakimlərə təzim etməməlidir.
– Əgər gimnast 60 saniyə sonra hərəkəti davam etdirmirsə, hərəkət bitmiş hesab edilir.

11.2 Hərəkətin tərkibi və qurulması

DV almaq üçün hoppanma da daxil olmaqla maksimum 8 element hesaba alınacaqdır.

– SIÇRAYIŞ YOXDUR – yekun xaldan 0.50 (D briqadası)
– Elementlər ailəsindən xroniki ardıcıllıqda yalnız **3** element DV, CR və CV üçün hesaba alınır.
– Bükülüb açılmaqla qalxmalar, irəliyə/arxaya fırlanmalar və duruş vəziyyətinə arxaya yellənmələr istisnadır.

*Elementlər ailəsi elementin başlanğıc mövqeyi və fırlanmanın istiqaməti (irəliyə və ya geriyə) ilə müəyyənləşdirilir.

Nümunə 1:

B D İ X (DV yoxdur)

Nümunə 2: 

D D D B B D

Nümunə 3

D B C X (DV yoxdur)

• Hoppanmalar (məsələn,) və sıçramalar (məsələn,) ailədən olan elementlərin sayına hesablanır.

• DV olmayan elementlər (pis icra texnikası səbəbindən) ailədən olan elementlərin sayına hesablanmır.

Hərəkətə müxtəlif qruplardan olan elementlər daxil olmalıdır:

Fırlanmalar və yellənmələr

– Arxaya geniş fırlanma
– İrəliyə geniş fırlanma
– Toxunmadan yellənmələr və fırlanmalar
– İrəliyə/arxaya ştalder
– Dayaqlı duruş vəziyyətində irəliyə/arxaya fırlanmalar

Uçuş elementləri

– YQ-dan AQ-a uçuş (və ya əksinə)
– Qarşılıqlı uçuşlar (qol üzərindən)
– Əllərlə təkan verməklə uçuşlar

– AQ-dan uçuşlar və həmin qolda salto
– Salto

11.3 Kompozisiyaya tələblər (CR) – *D briqadası* 2.00 B.

1– YQ-dan AQ-a uçuşlar	0.50
2– Eyni qolda uçuşlu elementlər	0.50
3– Ən azı iki müxtəlif tullanma (yellənmə, hoppanma və ya sıçrama yox)	0.50
4– Ən azı 360º dönməklə uçuşsuz element (hoppanma deyil)	0.50

11.4 Birləşmələrə görə əlavələr (CV) – *D briqadası*

Əlavələr yalnız birbaşa birləşmələrə görə verilir. CV – D xalının tərkib hissəsidir.

Birbaşa birləşmələr üçün düsturlar:

0.10	**0.20**
	D (uçuş– eyni qolda və ya AQ-dan YQ-a) + C* və ya daha çətin **(*YQ-da* və bu ardıcıllıqla *yerinə yetirilməlidir)***
D+D və ya daha çətin	D+E *(hər iki element uçuşlu)*

Qeyd: C/D elementi uçuşlu və ya ən azı ½ (180)dönməli olmalıdır.

a) CV alması üçün element bir birləşmədə iki dəfə yerinə yetirilə bilər, lakin elementin DV-si 2-ci dəfə **hesablanmır.**

b) Uçuşlu elementlərdə gözlə görünən uçuş fazası olmalıdır.
- YQ-dan AQ-a (və ya əksinə)
- Kontr uçuşlar, uçuşlar və ya sonradan eyni, yaxud digər qoldan tutmaqla salto.
- Sıçramalar

Qeyd: Sıçrayışlı və 180°-360° dönməli/dönməsiz elementlər uçuş fazalı elementlər hesab edilmir.

c) Birbaşa birləşmələr aşağıdakı kimi yerinə yetirilməlidir:
- Hoppanmalı elementlər (1-ci qrupun elementləri uçuşlu elementlər hesab edilmir) :

məsələn : D+D = 0.10
- Hərəkətdə birləşmələr və
- Sıçrayışlı birləşmələr.

d) İki (2) element arasında **yellənmə arası** və ya **boş sallanma** olduqda CV verilmir.

– ***"boş sallanma"*** *Elementlər Cədvəlindən element icra edilmədən əks tərəfə sallanma başlananadək irəliyə və geriyə yellənmədir*.

– 1/1 dönməklə və dönməsiz "Şaposnikov" tipli elementlərdən və aşağıdakı elementlərdən başqa:



Qeyd: əgər bükülüb açılmaqla qalxma 1/1 dönməklə və dönməsiz "Şaposnikov" tipli elementlərdən sonra yerinə yetirilirsə – boş sallanmaya görə cərimə tətbiq edilir.

– **"yellənmə arası"** növbəti elementin icrası üçün lazım olmayan boş sallanma və ya arxaya yellənmədir.

11.5 Kompozisiyaya görə cərimələr *(İ briqadası)*

Səhv	**0.10**	**0.30**	**0.50**
– AQ-dan YQ-a tullanma			X
– YQ-da sallanma, ayaqları AQ-a qoymaq, AQ-dan tutmaq			X
– Sıçramadan əvvəl birbaşa birləşmədə 2-dən artıq eyni element	X		

11.6 Spesifik cərimələr

Səhvlər	0.10	0.30	0.50 və artıq
D briqadası			
- Bədənin duruşda və duruş üçün arxaya yellənmə vəziyyəti	x	x	
- Tutmanın uyğunlaşdırılması	x		
- Pəncələrlə alətə zərbə			0.50
- Pəncələrlə mata zərbə (yıxılma)			1.0
- Səciyyəvi olmayan element (2 ayaqla və ya budlarla təkan vermək)			0.5
- Elementlərdə ritm pozuntusu	x		
- Uçuş fazalı elementlərin hündürlüyünün yetərli açılmamaq	x		
- Bükülüb açılmaqla qalxmalarda yetəri qədər açılmamaq	x		
- Yellənmə arası			0.50
- Boş yellənmə			0.50
- Elementlərin bitmə bucağı	x	x	x
- Amplituda - Üfüqi səv-dən aşağı irəliyə və arxaya yellənmələr - Arxaya yellənmələr	 X X	 X	
- Ayaqların dartınması zamanı (sıçrama) bud-bucaq oynağında həddən çox bükülmə	X	X	

11.7 Qeydlər

Yıxılmalar –

Uçuş elementləri

a) müxtəlif hündürlüklü qollarda hər iki əlin **toxunması** ilə *(asılma və ya dayaq göstərilmişdir)*, DV hesablanır.

b) hər iki əlin **toxunmaması** ilə– DV **hesablanmır** *(DV almaq üçün elementi təkrarlamaq olar)*

Alətdən sıçrama

a) Sıçrama cəhdi yoxdur (məs.)

Xal:

- DV yoxdur – yalnız 7 elementi hesaba almaq *(D briqadası)*
- Sıçrama yoxdur – 0.50 *(E briqadası)*
- Yıxılma -1.00 və ya yıxılma yoxdursa yerə enməyə görə cərimələr *(E briqadası)*

– Əgər gimnast hərəkəti davam etdirmək və sıçramanı yerinə yetirmək qərarına gəlirsə, bu halda cərimə xalı yalnız yıxılmaya görə verilir (sıçramanın olmamasına görə cərimə xalı yoxdur)

Əgər sıçrama başlanmışdırsa

Nümunə 1: $\frac{1}{2}$ saltonun başlanması ilə (ayaqlar üstünə enmədən)

Xal:

–DV yoxdur – yalnız 7 element hesablanır *(D briqadası)*
–Yıxılma -1.00 *(E briqadası)*

Alətə sıçrama

a) CR1 alınması üçün istifadə edilə bilərlər – YQ-dan AQ-a uçuşlu elementlər).

b) Hoppanmada yerinə yetirilən elementlər hərəkətdə də yerinə yetirilə bilərlər (və ya əksinə), lakin DV yalnız bir dəfə verilir.

12-ci Bölmə — Gimnastika tiri

ARTİSTİZM

Hərəkətin artistizmlə icra edilməsi

Gimnast hərəkəti artistizmlə icra etdikdə yaxşı kompozisiyanı "tamaşaya" çevirir. Bu hərəkətdə o, yaradıcılıq, özünə arxayınlıq, fərdi üslub və qüsursuz texnikanı nümayiş etdirməlidir.

Artistizm gimnastın "nə" deyil, "necə" yerinə yetirməsidir.

Kompozisiya və xoreoqrafiya

Gimnastika tirində hərəkətin kompozisiyası gimnastın yerinə yetirdiyi elementlər kompleksindən, habelə bu elementlərin xoreoqrafiyasından, yəni tir üzərində gimnastika və akrobatika elementlərinin yaxşı ritmlə və temp variasiyası ilə paylanmasından ibarətdir. Kompozisiya mürəkkəb elementləri artistiklə tarazlamalıdır ki, birləşmiş hərəkət yaransın.

Hərəkətin strukturuna və kompozisiyasına aşağıdakılar daxildir:

- Elementlər Cədvəlindəki müxtəlif qruplardan elementlərin zəngin və çeşidli seçimi.
- Müxtəlif səviyyələr (tirdə dayanaraq).
- İstiqamət dəyişiklikləri (irəliyə, arxaya, yana).
- Ritm və temp dəyişiklikləri.
- Yaradıcı və orijinal hərəkətlər, birləşmələr və keçidlər.

Struktur və kompozisiya gimnastın **"nə"** icra etməsidir.

Ritm və temp

– Ritm və temp dəyişməlidir, bəzən cəld, bəzən yavaş, lakin əsasən dinamik və fasiləsiz olmalıdır.

- Hərəkətlər arasındakı keçid rəvan və səlis olmalı, lazımsız fasilələr və elementlərdən əvvəl uzun müddətli hazırlıq hərəkətləri edilməməlidir.
- Hərəkət ayrı-ayrı elementlərin kompleksindən ibarət olmamalıdır.

12.1 Ümumi

Hərəkətə hakimlik körpücükdən və ya matlardan təkan vermə anından başlayır. Əlavə altlıqlar (məsələn, körpücüyün altına taxta parçası) qoymağa icazə **verilmir**.

– **Alətə sıçrama**

- Əgər gimnast ilk cəhddə körpücüyə və ya alətə toxunarsa
  - Cərimə -1.00
  - O, hərəkətə başlamalıdır
